

Milli azadlıqdan şirin nemət yoxdur!

# Qərbi Azərbaycan İcması genişlənir...



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
14 dekabr 2024-cü il, şənbə
№ 231 (6817)
Qiymәti 60 qəpik

# Sülh: Kim qazanacaq, kim itirəcək...



Bax səh. 2



## Leyla Əliyeva Ruanda Prezidenti ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 13-də Kiqali şəhərində Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Ruanda Prezidentinə çatdırıb.

Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Afrika ölkələrində təhsil və mədəniyyət sahələrinin inkişafı istiqamətində layihələrin, təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.

Noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıya səfər etdiyini qeyd edən Ruanda Respublikasının Prezidenti Pol Kaqame tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü xatırladan Pol Kaqame göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdən gözəl təəssüratlarla ayrıldığını deyib.

Pol Kaqame ölkəmizin, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə Ruandada həyata keçirilən təhsil və mədəniyyət...

Bax səh. 2

# Sənayeləşmədə yeni dövr

Bax səh. 3

## Kənar "güclər" Azərbaycana necə yol açırlar?

Xaricdəki Azərbaycanafob dairələrin ölkəmizə qarşı çirkin planlar hazırladıqları hər kəsə bəllidir. Təbii ki, erməni lobbisinə bağlı olan həmin dairələr Qərb mətbəxlərində yazılan ssenarilərini özləri birbaşa reallaşdırmaq imkanına malik deyillər. Burada onlar "Beşinci kolon"un xidmətlərindən bəhrələnirlər. Azərbaycanafob dairələrdən "Beşinci kolon" təmsilçilərinə qrantlar şəklində maliyyə vəsaitləri ayrılır, sonuncular da aldıqları paraların əvəzini milli maraqlarımıza zidd olan üzqarası "fəaliyyətləri" ilə ödəyirlər.

Qurulan bu şəbəkədə "Meydan TV" də var. TV vasitəsilə auditoriyaya demokratiyadan, insan haqlarından, bərabərlikdən, şəffaflıqdan uzun-uzadı nağıllar danışılsa da, alt qatda gizlənən yeganə məqsəd hansısa yollarla Azərbaycanın imicinə, milli maraqlarına xələl gətirməkdir.

"Meydan TV"çilər və bu qaragüruhu dəstəkləyən qüvvələr sözügedən media qurumunu həmişə məzlum və cəfakeş obrazda təqdim etməyə çalışırlar. Ancaq aşkarlanan faktlar bunun əksini sübut edir. Araşdırmalar nəticəsində bəlli olub ki, xarici düşmən dairələrin əlində alətə çevrilən, həmin dairələrdən gələn tezisləri sosial şəbəkə istifadəçilərinə ötürmək üçün dəridən-qabıqdan çıxan "məzlum" TV üzərindən çirkli pulların yuyulması mexanizmi işə salınıb. Belə ki, "Meydan TV" ətrafında aparılmış araşdırmalarla müəyyən edilib ki, media qurumunun qanunsuz maliyyələşdirilməsində beynəlxalq çirkli pulların yuyulması mexanizmlərindən istifadə olunub. Bununla bağlı əlahəzrət faktlar ortadadır. "Meydan TV"nin maliyyələşməsi Almaniyada qeydiyyatdan keçirilmiş "Demokratiya Uğrunda Assosiasiya" (Vereinigung für die Demokratie) adlı QHT üzərindən həyata keçirilir. Artıq ictimaiyyətə məlum olduğu kimi adıçəkilən təşkilatın direktoru Pensilvaniyada anadan olmuş...

Bax səh. 4

## Milli Məclisin iclasında...



Bax səh. 2

## SOCAR beynəlxalq maliyyə bazarlarında mövqeyini möhkəmləndirir

Bax səh. 4

## İrəvan münasibətlərin normallaşmasını istəyirsə...

Bax səh. 5

## Böyüklər üçün uşaq kitabı

Bax səh. 7

## NASCO XXVII...

Bu günlərdə Sumqayıt Dövlət Universitetində (SDU) Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransının (NASCO XXVII) plenar iclası baş tutub. Konfransda elm və təhsil naziri Emin Əmrullayev, bir sıra nüfuzlu ali məktəblərin rektorları, tanınmış alimlər, gənc tədqiqatçılar iştirak ediblər.

**287 tezisdən 251-i qəbul olundu**

Konfransda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev 27-ci dəfə keçirilən konfransın gənc alimlərə böyük imkanlar yaratdığını vurğulayıb. Nazir bildirib ki, hazırda müasir təhsil infrastrukturunun yaradılması, universitetlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi bu sahədəki əsas prioritetlərdəndir. Plenar iclasdan sonra konfrans öz işini bölmələr üzrə davam etdirib. Konfransa 287 tezis daxil olub, onlardan 251 tezis qəbul olunub.

**Elmimizin gəncləşməsinə ehtiyac var**

Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan elminin gəncləşməyə böyük ehtiyacı var. Nazirin sözlərinə görə, akademik dürüstlük olarsa, akademik nailiyyətlər də daha yaxşı olacaq: "Dürüst insan başqasının əməyini oğurlayıb öz əməyi kimi təqdim etmirsə, bu, çox böyük akademik nailiyyətdir. Elm sahəsində dövlət tərəfindən həqiqətən də bir neçə vacib addımlar atılıb. Hazırda xaricdə 280-ə qədər azərbaycanlı dünyanın aparıcı universitetində doktorantura təhsili alır. Hər il 500 gənc xaricdə təhsilə göndərilir: "Bu il 20 faizə qədər gəncin doktorantura təhsili üçün xaricə göndərilməsi maliyyələşdiriləcək. Bu, o deməkdir ki, xaricdə təhsil alan doktorantların sayı artacaq".

E.Əmrullayev həmçinin vurğulayıb ki, yaxın gələcəkdə doktoranturaya qəbul planında müəyyən korreksiyalar edilməsi planlaşdırılır: "Doktoranturada oxuyanların 10 faizi bu təhsilə başlayıb sonda elmi dərəcə alıb...

Bax səh. 5

## Avropa üçün "kilsə zəngi"...



Bax səh. 6

## Afrika Yelisey Sarayına qarşı



Bax səh. 7



# Leyla Əliyeva Ruanda Prezidenti ilə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 13-də Kiqali şəhərində Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb.**

**AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Ruanda Prezidentinə çatdırıb.**

**Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Afrika ölkələrində təhsil və mədəniyyət sahələrinin inkişafı istiqamətində layihələrin, təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.**

**Noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıya səfər etdiyini qeyd edən Ruanda Respublikasının Prezidenti Pol Kaqame tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü xatırladan Pol Kaqame göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdən gözəl təəssüratlarla ayrıldığını deyib.**

**Pol Kaqame ölkəmizin, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə Ruandada həyata keçirilən təhsil və mədəniyyət sahəsindəki layihələrə görə təşəkkür edib. Bu günlərdə Ruandada Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Baş Assambleyasının iclasının keçirildiyini qeyd edən Pol Kaqame Azərbaycanın beynəlxalq layihələrə, o cümlədən dünya əhəmiyyətli idman yarışlarına, xüsusilə Formula 1 yarışına uğurla ev sahibliyi etdiyini vurğulayıb. Gələcəkdə Formula 1 yarışının Ruandada da keçiriləcəyinə ümidvar olduğunu deyən Prezident Pol Kaqame bu istiqamətdə Azərbaycan Avtomobil Federasiyasının dəstəyinə böyük önəm verdiyini bildirib.**

**Görüşdə Ruanda Respublikasının Prezidentinə Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri - “Azərbaycan. Təbiətin sehrində” kitabı təqdim edilib.**

# Sülh: Kim qazanacaq, kim itirəcək...

## Əməkdaşlıq və təhlükəsizlik Qərb-Şərq platformasını yeniləyəcək

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. 2 ildən artıqdır davam edən və özünün məntiqi nəticəsinə çox yaxın olan sülh prosesi yeni iqtisadi-siyasi nizamın mühüm ştrixlərindən birinə çevrilə bilər - məhz bağlanacaq sülh müqaviləsi Cənubi Qafqazın yeni dönəmdə stabil və sabit məkan kimi inkişafına yol açacaq, qlobal layihələrdəki iştirakımızı rəsmiləşdirəcək. Bir sözlə, Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu sülh layihəsinin prioritet istiqamətləri həm də Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir. Sülhün imzalanması ilə Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz üçün yeni inkişaf mərhələsi formalaşdırır.

### Ermənistanı nələr gözləyir?

Vətən müharibəsindən sonra aktuallaşan bir sıra əməkdaşlıq formatları - “3+3”, “3+2” və nəhayət “2+2” kimi rəmzi strukturlaşdırma təməlinə malik tərəfdaşlıq kompleksləri bölgənin sülhdən sonrakı şəkilləndirməsini özündə ehtiva edir. Çünki iqtisadi əməkdaşlıqlar regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Regionun gələcəyinin yeni inkişaf strategiyası kimi irəli sürülən sülh prinsipləri 2023-cü ilin sentyabrından sonra yeni istiqamət alıb - ortaya qoyulan təhlillərə əsasən demək olar ki, sülh ən çox Ermənistanın “işinə” yarayır.

Siyasi komponentlər üzrə təhlil etsək, Ermənistanın dövlət olaraq özünü müstəqil subyekt kimi xarakterizə etməsi üçün Azərbaycanın yaratdığı yeni reallıqlardan səmərəli istifadə etməsi lazımdır. Sülh Ermənistanın de fakto “kimliyini” ortaya çıxaracaq, dövlət kimi dünyaya təqdim edəcək. Əks halda... Ermənistan yenə də ya “forpost”, ya da “kölgə” dövlət funksiyasını davam etdirəcək.

İqtisadi tərəflərinə gəldikdə isə, sülhün imzalanması Ermənistan üçün mühüm dividendlər vəd edir. İlk növbədə, İrəvan xarici ianələrdən “xilas olacaq”, özünün yeni daxili iqtisadi təməl bazasını yarada biləcək. Burada Azərbaycanın yaradacağı yeni iqtisadi-ticari mənzərə böyük rol oynayır. Açılacaq Zəngəzur dəhlizi vasitəsilə Ermənistan dünyaya açıla biləcək və özünü iqtisadi “tərəf” kimi təqdim etmək şansı qazanacaq.

İkinci növbədə, Ermənistanın iqtisadi təhlükəsizliyi məsələsi reallaşacaq - yeni və mühüm bir qlobal əməkdaşlıq bazarının stansiyasına çevriləcək Ermənistan həm enerji, həm iqtisadi, həm də sosial problemlərinin həlli ilə bağlı mühüm bir yol qət etmiş olacaq.

Sosial inkişaf isə Ermənistanın dövlət olaraq stabil inkişafına qarantiya verəcək - artıq İrəvan başqa güclərin əlində oyuncaq olmaq məcburiyyətində qalmayacaq, fərqli güclərin və dövlətlərin “aləti” olmaqdan xilas ediləcək...



**Sülhün imzalanması Şərq-Qərb iqtisadi sisteminin daha da yaxınlaşması, inteqrasiya etməsi üçün can yandıran, buna yol açan dövlətlərin marağındadır**

### TDT ölkələri üçün yeni üfüqlər...

Sülhün imzalanması Şərq-Qərb iqtisadi sisteminin daha da yaxınlaşması, inteqrasiya etməsi üçün can yandıran, buna yol açan dövlətin də marağındadır. Bəli, qlobal cəmiyyətlərin qurulduğu, mühüm inkişaf dövrünü özündə əks etdirən XXI əsr lokal birlikləri istisna etsə də, multikultural dəyərlərin aşınması kimi qorxulu tendensiyalarla müşayiət olunsa da, Azərbaycan Mərkəzi Asiya-Cənubi Qafqaz-Kiçik Asiya xətti üzrə tamam fərqli bir mənzərə formalaşdırıb. Asiya ilə Avropanın “təbii körpüsü” adlandırılan, sivilizasiyaların, Şərq və Qərb mədəniyyətlərinin qovşağı sayılan Azərbaycan iqtisadi diqqəti yaşadığımız region üçün fokuslandırılmasına nail olub. Burada da enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlər önə çıxır ki, regional səviyyədəki əməkdaşlıqlar yeni mərhələdə qlobal inkişaf konsepsiyasının aparıcı coğrafi indeksi kimi müəyyənləşir. Çindən başlayan yolun Avrpopa məkanına doğru irəliləməsi Mərkəzi Asiyanı bu inkişaf mərhələsinin mühüm hissəsinə çevirir. Bu baxımdan, TDT məkanı Azərbaycanın yaratdığı yeni mərhələnin - sabitlik və inkişaf mərhələsinin daha da şaxələndirilməsində, genişləndirilməsində maraqlı görünür. Çünki iqtisadi əməkdaşlıqlar regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir.

**Sülhdən “qazanc” əldə etməyənlər bölgənin ümumi inkişaf tempinə kənar müdaxilələrlə mane olmağa çalışırlar**

### Qərbin Şərqə ehtiyacı hər zaman olduğundan daha böyükdür

Vurğulandığı kimi, bu proses Şərq ilə Qərbi birləşdirir - bu mənada, Qərbin də məsələyə marağı böyükdür. Kiçik ermənipərəst qruplar istisna olmaqla Avropa məkanının, xüsusilə Mərkəzi Avropanın Azərbaycanın yaratdığı bu yeni iqtisadi təmərküzləşməyə, enerji mübadiləsinə marağı və ehtiyacı böyükdür. Bunun üçün də qlobal sülhün sədaları ilk növbədə Avropada eşidilməkdədir. Son seçkilərdən sonra ABŞ-ın yeni hakimiyyətinin məsələlərə realist baxışları və Avropadakı yaxın əməkdaşlıq sferasının bəzi ünvanlarının dəyişməsi onu deməyə əsas verir ki, Şərq-Qərb strategiyası üzrə inkişaf edən mühüm hədəflər yeni nizamda Qərb tərəfindən də dəstəklənəcək. Çünki Avropa bu gün iqtisadi gərginliklər, siyasi çəkişmələr, dini fobizmlər məngənəsindən xilas ola bilmir. Maraqları toqquşdurmaq əvəzinə uzlaşdırmaq prinsipi isə illərdir ki, ayrı düşmüş region ölkələrini də bir araya gətirəcək. Başqa sözlə, Cənubi Qafqazda başlanan proses Avropanın da siyasi təhlükəsizliyini, iqtisadi diversifikasiyasını təmin etmiş olacaq.

### Sülhə mane olanlar...

Sülhü istəməyənlər “kateqoriyası” isə məhdud və azlıqdır. Bu “siyahıda” bəlkə də ən pessimist və neqativ durumda olan Fransa və dostlarıdır. Əslində onları ümumiləşdirilmiş halda “uduzmağa məhkum olanlar” kimi də təqdim etmək olar. Hərbi eskalasiyanın artmasında maraqlı olan Fransa, Yunanıstan, Hindistan kimi dövlətlər bunun baş verməsi üçün illərdir ki, çaba göstərir. Ermənistana milyonlarla dollar qiyməti olan və qarşılıqsız verilən silahlar məhz yuxarıda qeyd edilən yeni iqtisadi-siyasi, ticari imkanları məhdudlaşdırmaq üçün səfərbər edilir. Fransanın patronajlığı altında olan bu qrup üçün sistemin inkişafa deyil, geriyə sayım etməsi daha maraqlı görünür - səbəbləri isə bəllidir:

- Fransa Qərbdə arxa plana keçirilib;

- Yunanıstanın yerləşdiyi regionda apardığı qeyri-adekvat siyasət ifşa olunub - Türkiyə yeni dövrün ən güclü qlobal aktorlarından birinə çevrilib;

- Hindistan isə hələ də özü üçün yer müəyyənləşdirə bilməyib - qlobal proseslərdən bir neçə addım geri qalan Delhi proseslərin arxasınca sürünməyə üstünlük verir.

Beləliklə, sülhdən “qazanc” əldə etməyənlər bölgənin ümumi inkişaf tempinə kənar müdaxilələrlə mane olmağa çalışırlar. Amma onların bu fəaliyyəti də əbəsdir - çünki Azərbaycanın təşəbbüsü ilə başlanan bu proses yeni dünya nizamında ən mühüm amillərdən birinə çevrilib. Bu reallığı isə dəyişmək mümkünsüzdür - sülhün tez imzalanması dividend qazanacaq tərəflər üçün mayaka çevriləcək...

***P.SADAYOĞLU***

## Milli Məclisin iclasında...

# Deputatlar 10 məsələni müzakirə ediblər



Dekabrın 13-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündliyinə 10 məsələ daxil edilib.

Əvvəlcə “Minatəmizləmə fəaliyyəti haqqında” qanun layihəsini üçüncü oxunuşda qəbul olunub. Qanun layihəsi 3 fəsil 14 maddədən ibarətdir. 1-ci fəsildə istifadə olunan əsas anlayışların mənaları, qanunun tətbiq dairəsi müəyyən edilib. 2-ci fəsildə mina əleyhinə fəaliyyət sahəsində dövlət siyasətinin istiqamətləri, minatəmizləmə fəaliyyətinin subyektləri və bu fəaliyyətə dair tələblər, təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyətinin xüsusiyyətləri, minatəmizləmə fəaliyyətində keyfiyyətə nəzarət və s. məsələlər öz əksini tapıb. 3-cü fəsildə isə yekun müddəalar müəyyən olunub.

**“Diplomatik xidmət haqqında” yeni qanun layihəsi**

“Diplomatik xidmət haqqında” yeni qanun layihəsi isə birinci oxunuşda qəbul olunub. Layihə 5 fəsil və 31 maddədən ibarətdir. Layihənin hazırlanması prosesində diplomatik xidmət orqanlarının və həmin orqanlarda xidmət edən əməkdaşların fəaliyyətinin tənzimlənməsi ilə bağlı ehtiyac duyulan məsələlər araşdırılıb. Bununla yanaşı, diplomatik xidmət sahəsində beynəlxalq təcrübə və dövlət qulluğu sahəsində Azərbaycanın normativ-hüquqi aktlarının aidiyyəti normaları öyrənilib. Layihə diplomatik xidmət sahəsinin müasir tələblərə uyğun təşkilini və hüquqi bazanın təkmilləşdirilməsini hədəfləyir. Yeni qanun diplomatik xidmətdə tənzimlənməyən aktual məsələlərin həllinə, hüquqi əsasların yenilənməsinə, əməkdaşların hüquq və vəzifələrinin dəqiq müəyyən edilməsinə, rotasiya və beynəlxalq təşkilatlarda fəaliyyət kimi bir sıra mühüm məsələlərin həllinə yönəlib.

Layihəyə əsasən, diplomatik xidməti orqanı əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi və diplomatik xidmət əməkdaşlarının attestasiyası həyata keçiriləcək. Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi vəzifələrində xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin edilən, müvafiq diplomatik və ya inzibati vəzifədə təqvim ilinin sonunadək azı altı ay daimi xidmət (qulluq) keçən diplomatik xidmət orqanı əməkdaşlarının xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir.

Peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinin qiymətləndirilməsi, habelə tutduğu vəzifəyə uyğun olduğunu müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik vəzifəyə təyin edilən diplomatik xidmət əməkdaşlarının (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik rütbə verilən və xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi vəzifələrində xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla) attestasiyası keçirilir. Yalnız müvafiq diplomatik vəzifədə azı 1 il daimi xidmət keçən diplomatik xidmət əməkdaşları attestasiyadan keçirilə bilərlər. Diplomatik xidmət əməkdaşlarının attestasiyası 5 ildə 1 dəfədən çox olmayaraq keçirilir və bu zaman onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır.

Qeyd edilənlər nəzərə alınmaqla, diplomatik nümayəndəliklərdə və konsulluqlarda xidmət keçən diplomatik xidmət əməkdaşları rotasiya əsasında geri çağırıldıqdan sonra attestasiyadan keçirilirlər. Diplomatik xidmət əməkdaşlarının attestasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

İclasda Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də birinci oxunuşda qəbul olunub. Dəyişikliyə əsasən, mövcud tikinti obyektinin torpaq sahəsində (tikinti sahəsi istisna olmaqla) və ya fərdi yaşayış evinin həyətyanı torpaq sahəsində elektrik mühərrikli nəqliyyat vasitələri üçün elektrik enerjisi doldurucuları yerləşdirilə bilər. Bu dəyişiklik, elektriklə işləyən nəqliyyat vasitələrinin yayılmasını və infrastrukturların uyğunlaşdırılmasını nəzərdə tutur.

**Yüksək ixtisaslı miqrantlar üçün yeni güzəştlər müəyyən edilir**

Miqrasiya Məcəlləsinə və “Dövlət rüsumu haqqında” Qanuna da dəyişikliklər birinci oxunuşda qəbul olunub. Dəyişikliyə əsasən, yüksəkixtisaslı miqrantlar üçün yeni güzəştlər müəyyən edilir. Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, yüksəkixtisaslı miqrant dedikdə yüksəkixtisaslı mütəxəssislərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər nəzərdə tutulur.

**Dövlət rüsumları “e-bildiriş” əsasında ödəniləcək**

“Dövlət rüsumu haqqında” Qanuna nəzərdə tutulan dəyişikliklərdə isə “dövlət rüsumlarının elektron idarəedilməsi (e-rüsum)” informasiya sisteminin yaradılması əksini tapır. Layihəyə əsasən, dövlət rüsumu üzrə daxilolmaların dövlət büdcəsinə köçürülməsi üçün “e-bildiriş”in təqdim edilməsi, dövlət rüsumunun hesablanmış daxilolmaları üzrə məlumatların aidiyyəti orqan (qurum) tərəfindən real vaxt rejimində əldə edilməsi, artıq ödənilmiş və ya düzgün tutulmamış dövlət rüsumu ilə bağlı müraciətlərə dair məlumatların qəbulu və aidiyyəti üzrə baxılması, dövlət rüsumunun dövlət büdcəsinə köçürülməsinə elektron nəzarət və uçot müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçiriləcək.

“e-bildiriş” dövlət rüsumu tutulan hər bir xidmət və hüquqi hərəkət üzrə elektron qaydada tərtib olunan, dövlət rüsumunun dövlət büdcəsinə daxilolmalarının təyinatı üzrə hesablanması və köçürülməsi üçün istifadə olunan və bu Qanunda nəzərdə tutulmuş informasiya sistemi vasitəsilə təqdim edilən sənəddir. “e-bildiriş”in tərtibi, tətbiqi və uçotu qaydaları, “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinin forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Layihəyə əsasən, yeni dövlət rüsumları da müəyyənləşir.

İclasda gündəlikdə olan digər qanun layihələri də qəbul olunub.

Spiker Sahibə Qafarova parlamentin növbəti iclasının dekabrın 16-da keçiriləcəyini bildirib.

***Nardar BAYRAMLI***

# Qərbi Azərbaycan İcması genişlənir...

## İcmanın ilk xarici ofisi Türkiyədə açıldı

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması üçün sistemli işlər aparılır. Məlumdur ki, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılıblar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə soydaşımız dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınıb. Bu deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb və Ermənistan monoetnik dövlətə çevrilib.

Bu gün Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Rəsmi İrəvan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıdıb. Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalıb. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyil.

Hazırda Qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Bütün bunlar qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiq edir. Ermənistanın Qərbi Azərbaycan İcmasından qorxmasının əsas səbəbi də budur. Lakin Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq daxil olmaqla, onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur. Eləcə də, İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb.






**Qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Bütün bunlar qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiq edir**

Bütün bunların fonunda Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması üçün fəaliyyət genişləndirilir. Dekabrın 12-də Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı da bu faktın göstəricisidir. Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan açılış mərasimində əvvəlcə Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının Türkiyə təmsilçisi Asif Qurban bunun icmanın Azərbaycandan kənarda açılan ilk ofisi olduğunu bildirib və Türkiyədə sayı təxminən 1,5 milyon nəfər olan Qərbi Azərbaycan əsilli şəxsləri ətrafında birləşdirmək, bu insanların tarixi vətənlərinə ləyaqətli qayıdış hüququnu təşviq etmək məqsədi daşıdığını deyib. O, yeni yaradılan ofisin qarşısında duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan akademik konfranslar, simpoziumlar və digər fəaliyyət istiqamətləri barədə məlumat verib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov XIX əsrdə çar Rusiyası tərəfindən Azərbaycana qarşı aparılan demoqrafiyanın dəyişdirilməsi siyasəti haqqında geniş məlumat verib, bunun davamında XX əsrdə Ermənistanın məqsədyönlü siyasəti ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yurdlarından didərgin salındığını vurğulayıb. Səfir, bir sıra dövlətlərin Azərbaycana qarşı siyasətində önə çıxan ikili standartlara diqqət çəkərək, Qərbi azərbaycanlıların dədə-baba yurdlarına qayıtması hüququna etinasız yanaşmanın yolverilməz olduğunu qeyd edib. O, Heydər Əliyevin anım günündə açılışı həyata keçirilən QAİ-nin Türkiyə təmsilçiliyinin Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə çatdırılmasında fəal rol oynayacağına ümidvar olduğunu deyib.

Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının Türkiyə ofisinin rəhbəri, əslən Qərbi Azərbaycanın Hamamlı mahalının Saral kəndindən olan Asif Qurban 31 ildir ki, İzmirdə yaşayır və bir çox qeyri-hökumət təşkilatlarına rəhbərlik edib. Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla iş sistemini gücləndirmək kimi məsələlər yer alır.

*Nardar BAYRAMLI*

# Sənayeləşmədə yeni dövr

## 2025-ci ildə sənayenin inkişafı üçün iqtisadi stimullar və dövlət dəstəyi tədbirləri davam etdiriləcək

İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib. Agentliyin İdarə Heyətinin sədri Seymur Adıgözəlov bu il qurumun idarəçiliyində olan sənaye zonalarında görülmüş işlər, həyata keçirilən layihələr barədə məlumat verib. Həmçinin iclas çərçivəsində agentliyin 2025-ci il üçün qarşıya qoyulmuş prioritet inkişaf istiqamətləri müəyyənləşdirilib, təşkilati-struktur məsələləri müzakirə olunub.

### 8 sənaye parkı, 4 sənaye məhəlləsi və 25-ə yaxın aqropark

Qeyd edək ki, İqtisadi Zonaların İnkişafı Agentliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin əsasında publik şəxs kimi yaradılıb. Agentlik sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlərin hazırlanıb, həyata keçirilməsi və bu istiqamətdə təşviqedici addımların atılmasında tənzimləyici funksiyaya malikdir. Sənaye Parkları və məhəllələri ölkəmizin iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasında mühüm rol oynayır.




Hazırda ölkəmizdə Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkının fəaliyyət göstərir. Dövlət başçısının dekabrın 5-də imzaladığı fərmana əsasən, Naxçıvan Sənaye Parkı yaradılması nəzərdə tutulur ki, bununla da sənaye parklarının sayı 8-ə çatmış olur. Eləcə də, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Masallı, Neftçala, Sabirabad və Şərurda yerləşməklə 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Həmçinin, 25-ə yaxın aqropark fəaliyyət göstərir ki, bu da regionlarda aqrar-sənaye potensiallarının səfərbər olunması, həmin bölgələrin inkişafında mühüm rol oynayır.

### Sənaye parklarında 13,5 milyard manatlıq məhsul istehsal edilib

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin ediliblər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar. Sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər indiyə qədər 500 milyon manata yaxın vəsaitə qənaət ediblər.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 75-ə yaxın müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 1 milyard manata yaxın investisiyanın yatırılması, 7100-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye zonalarında indiyədək ümumilikdə 13,5 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 4,3 milyard manatlıq hissəsi ixrac olunub. 2024-cü ilin birinci yarısında sənaye zonalarının rezidentləri tərəfindən 1,4 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 478 milyon manatı ixracın payına düşür. Bu iqtisadi modellər Azərbaycanın sənaye istehsalının ÜDM-də payının 50 faizi ötməsində də mühüm rol oynayıb. Qeyri-neft sənayesində cari ilin ötən 11 ayında 8 faizə yaxın artım qeydə alınıb ki, bu da ölkədəki sənaye potensialı güclərinin verdiyi töhfənin nəticəsidir.

**Hazırda ölkəmizdə Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı fəaliyyət göstərir. Dövlət başçısının dekabrın 5-də imzaladığı fərmana əsasən, Naxçıvan Sənaye Parkının yaradılması nəzərdə tutulur ki, bununla da sənaye parklarının sayı 8-ə çatmış olur**

### Azad ərazilərdə dayanıqlı sənaye istehsalına başlanıb

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonları da artıq sənaye ailəsində öz layiqli yerini tutmaqdadır. Qeyd edək ki, Qarabağın dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Hazırda Sənaye Parkında 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-reizdentlik statusu verilib. 2024-cü ilin sentyabrında Ağdam Sənaye Parkında bir neçə müəssisənin istifadəyə verilməsi ilə azad ərazilərin sənaye istehsalı zəncirinə qoşulması təmin edilib. Bu Parkda hazırda 9 müəssisə fəaliyyət göstərir ki, ölkədə sənaye transformasiyasının irəliləməsində Ağdamın mühüm rolunu daha da artıracaq.

Eləcə də, logistik imkanlar baxımından əlverişli ərazidə yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanı ilə 200 hektar ərazidə yaradılıb. Hazırda Sənaye Parkında 13 sahibkarlıq subyektinə rezidentlik, 2 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Şərqi Zəngəzurun sənaye gücünün ən nəhəng sütununa çevrilən Parkda hazırda 1 müəssisə fəaliyyət göstərir. Yaxın vaxtlarda ən azı 5 müəssisənin istehsal və emal fəaliyyəti təmin olunacaq.

Yeri gəlmişkən, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarına digər parklarda tətbiq olunan vergi-gömrük güzəştlərindən başqa, əlavə güzəştlər də nəzərdə tutulub. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir. Bu isə azad ərazilərdə sənayeləşmənin daha sürətlə davam etməsinə münbit şərait yaradır.

Ümumilikdə, yürüdülən sənaye siyasətinə əsasən, 2025-ci ildə və qarşıdakı illərdə sənaye parkları və məhəllələrinin, aqroparkların inkişafı üçün iqtisadi stimullar, vergi-gömrük güzəştləri və dövlət dəstəyi tədbirləri davam etdiriləcək, investorların cəlb edilməsi üçün əlavə təşviqedici addımlar atılacaq. Məqsəd sənaye sektorunun milli dəyərdə payını daha da yüksəltməkdir.

*Elbrus CƏFƏRLİ*

**Sənaye zonalarında indiyədək ümumilikdə 13,5 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 4,3 milyard manatlıq hissəsi ixrac olunub. 2024-cü ilin birinci yarısında sənaye zonalarının rezidentləri tərəfindən 1,4 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 478 milyon manatı ixracın payına düşür. Bu iqtisadi modellər Azərbaycanın sənaye istehsalının ÜDM-də payının 50 faizi ötməsində də mühüm rol oynayıb. Qeyri-neft sənayesində cari ilin ötən 11 ayında 8 faizə yaxın artım qeydə alınıb ki, bu da ölkədəki sənaye potensialı güclərinin verdiyi töhfənin nəticəsidir**

# SOCAR beynəlxalq maliyyə bazarlarında mövqeyini möhkəmləndirir

## Şirkət İtaliyanın "Intesa Sanpaolo" bankı ilə maliyyənin cəlb edilməsinə dair müqavilə imzalayıb

Azərbaycanın milli neft korporasiyası olan SOCAR qlobal enerji təchizatçısı ilə yanaşı, beynəlxalq maliyyə bazarlarında da öz mövqeyini möhkəmləndirmək niyyətindədir. Şirkət Avropanın aparıcı maliyyə institutları ilə səhm və istiqrazlar, "yaşıl maliyyə" alətləri sahəsində sıx əməkdaşlığı möhkəmləndirmək, özünün potensial maliyyə imkanlarını beynəlxalq bazarlara inteqrasiya etmək niyyətindədir. SOCAR-ın vitse-prezidenti Zaur Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyətinin bu günlərdə İtaliyanın Milan şəhərində keçirdiyi görüşlərdə də maliyyə alətləri sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Səfər çərçivəsində İtaliyanın "Intesa Sanpaolo" bankı və törəmə şirkəti olan "Vseobecna Uverova"nın rəhbər heyətləri ilə aparılan müzakirələr zamanı sözügedən bankın maliyyə vəsaitinin cəlb edilməsinə dair müqavilə imzalanıb.

### SOCAR istiqrazları investorlar üçün əlverişli investisiya alətinə çevrilir

İtaliyanın səhm sektoru üzrə aparıcı investorları, o cümlədən "Intesa Sanpaolo" SOCAR-ın beynəlxalq maliyyə bazarında tədavüldə olan istiqrazlarının yerləşdirilməsinə dəstək vermək niyyətini də bəyan edib. Bu, Azərbaycanın neft şirkətinin Avropanın fond və korporativ qiymətli kağızlar bazarında potensial investor kimi çıxış imkanlarını artırmasına dərin zəmin deməkdir.

Qeyd edək ki, SOCAR bir neçə ildir ki, maliyyə investoru kimi də qiymətli kağızlar bazarında yer almaqdadır. 2016-cı ildən emissiya edilən bu qiymətli kağızlar nominal dəyəri 1000 dollar olmaqla illik gəlirliliyi 5 faiz təşkil edir. İstiqrazlardan əldə olunan dividentlərdən vergi tutulmur. Bu kağızların üstünlüyü likvid olması, asanlıqla pula çevrilməsidir. Mövcud maliyyə bazarlarında xarici valyutada təklif edilən faiz dərəcəsi baxımından SOCAR istiqrazları investorlar üçün əlverişli investisiya aləti hesab edilir və bu da investor bazasının genişlənməsinə öz müsbət təsirini göstərir. Şirkət beynəlxalq bazarlarda da öz maliyyə alətlərini emissiya etməkdə qərarlıdır.

**İtaliyanın səhm sektoru üzrə aparıcı investorları, o cümlədən "Intesa Sanpaolo" SOCAR-ın beynəlxalq maliyyə bazarında tədavüldə olan istiqrazlarının yerləşdirilməsinə dəstək vermək niyyətini də bəyan edib. Bu, Azərbaycanın neft şirkətinin Avropanın fond və korporativ qiymətli kağızlar bazarında potensial investor kimi çıxış imkanlarını artırmasına dərin zəmin deməkdir**

**SOCAR beynəlxalq standartlar çərçivəsində öz borclarının düzgün idarə edilməsində ESG standartlarının tətbiqi prosesindən faydalanma komponentini nəzərə alır və "yaşıl" maliyyələşmə imkanlarına da üstünlük verəcək. Bu isə SOCAR-ın strateji bərpaolunan enerji layihələrinin səmərəli idarə edilməsində rolunu artıracaq, bu sahədə beynəlxalq tərəfdaşlar ilə əməkdaşlıq imkanlarının genişləndirilməsinə səbəb olacaq**

### "Yaşıl maliyyə" ilə bağlı yeni strateji baxış

Qlobal mühitdə "yaşıl maliyyə" ekosisteminin möhkəmlənməsi və qiymətli kağızlar bazarlarının gündəliyində aparıcı yer tutan "yaşıl" layihələrə sərmayələrin artması SOCAR-ın da öz strategiyasına yeni baxış formalaşdırıb.

Son illər Ətraf mühit, Sosial məsuliyyət və Korporativ İdarəetmə (ESG) sahəsində yeni çağırışlar və bu sahədə artan uyğunluq tələbləri SOCAR-ın yeni strateji hədəfində ilk yerlərdən birini tutur. Bu baxımdan, şirkət beynəlxalq investorların "yaşıl maliyyə"də yeni standartların tətbiqinə geniş yer verməsinin əhəmiyyətini nəzərə alaraq, maliyyə bazarında "yaşıl istiqrazlar"ın emissiyasına başlayıb.

Qeyd edək ki, Azərbaycanda bu sahədə investorların fəaliyyəti zəifdir və SOCAR-ın bu boşluğu doldurması üçün əlverişli imkanlar yaranır. Bununla da, SOCAR beynəlxalq standartlar çərçivəsində öz borclarının düzgün idarəedilməsində ESG standartlarının tətbiqi prosesindən faydalanma komponentini nəzərə alır və "yaşıl" maliyyələşmə imkanlarına da üstünlük verəcək. Bu isə SOCAR-ın strateji bərpaolunan enerji layihələrinin səmərəli idarə edilməsində rolunu artıracaq, bu sahədə beynəlxalq tərəfdaşlar ilə əməkdaşlıq imkanlarının genişləndirilməsinə səbəb olacaq. Eyni zamanda, şirkətin neft-qaz əməliyyatlarında dekarbonizasiya proseslərində digər enerji şirkətləri ilə həmrəyliyini artıracaq.

### "Yaşıl istiqraz" qlobal bazarlarda kredit reytinqini yüksəldir

"Yaşıl istiqraz"lar satışından əldə edilən vəsaitlər karbon emissiyasının azaldılmasına və ətraf mühitə müsbət təsir edən layihəyə yönəldiləcək ki, bu da SOCAR-ın COP prinsiplərindən irəli gələn təşəbbüslərdə fəal mövqeyini də möhkəmləndirəcək. Ən mühüm məqamlardan biri isə "yaşıl istiqraz"ların emissiyası SOCAR-ın ESG reytinqinə malik milli şirkət kimi qlobal bazarlarda kredit reytinqini də yaxşılaşdıracaq.




SOCAR-ın maliyyə bazarları üzrə yürütdüyü siyasətdən də aydın olur ki, şirkət Asiya və Avropanın iri investorları ilə "yaşıl səhm və istiqraz"lar üzrə inteqrasiyanı genişləndirmək, gələcəkdə də ESG standartlarının artan tələblərə uyğun yeni alətlərin emissiyasına üstünlük vermək niyyətindədir. Bu strateji konsepsiya beynəlxalq müstəvidə korporativ idarəetmənin əsas şərtlərindən olan şəffaflığın ardıcıl və davamlı təmin edilməsi üçün də mühüm əhəmiyyət kəsb edir. Həmçinin, "yaşıl maliyyə" alətlərindən istifadə şirkətin borc portfelinin strukturunun da müasirləşməsinə imkan verir. Ona görə də, SOCAR-ın bu tipli maliyyələşdirmələrin xüsusi çəkisini öz portfelində mümkün həddə artıracağını düşünmək olar. İtaliyanın aparıcı maliyyə investorları ilə əməkdaşlıq da məhz bu perspektiv siyasətə xidmət edir.

**ELBRUS**

# Kənar "güclər" Azərbaycana necə yol açırlar?

Xaricdəki Azərbaycanafob dairələrin ölkəmizə qarşı çirkin planlar hazırladıqları hər kəsə bəllidir. Təbii ki, erməni lobbisinə bağlı olan həmin dairələr Qərb mətbəxlərində yazılan ssenarilərini özləri birbaşa reallaşdırmaq imkanına malik deyillər. Burada onlar "Beşinci kolon"un xidmətlərindən bəhrələnirlər. Azərbaycanafob dairələrdən "Beşinci kolon" təmsilçilərinə qrantlar şəklində maliyyə vəsaitləri ayrılır, sonuncular da aldıqları paraların əvəzini milli maraqlarımıza zidd olan üzqarası "fəaliyyətləri" ilə ödəyirlər.

Qurulan bu şəbəkədə "Meydan TV" də var. TV vasitəsilə auditoriyaya demokratiyadan, insan haqlarından, bərabərlikdən, şəffaflıqdan uzun-uzadı nağıllar danışılsa da, alt qatda gizlənən yeganə məqsəd hansısa yollarla Azərbaycanın imicinə, milli maraqlarına xələl gətirməkdir.

### "Meydan TV" üzərindən çirkli pulların yuyulması mexanizmi

"Meydan TV"çilər və bu qaragüruhu dəstəkləyən qüvvələr sözügedən media qurumunu həmişə məzlum və cəfakeş obrazda təqdim etməyə çalışırlar. Ancaq aşkarlanan faktlar bunun əksini sübut edir. Araşdırmalar nəticəsində bəli olub ki, xarici düşmən dairələrin əlində alətə çevrilən, həmin dairələrdən gələn tezisləri sosial şəbəkə istifadəçilərinə ötürmək üçün dəridən-qabıqdan çıxan "məzlum" TV üzərindən çirkli pulların yuyulması mexanizmi işə salınıb. Belə ki, "Meydan TV" ətrafında aparılmış araşdırmalarla müəyyən edilib ki, media qurumunun qanunsuz maliyyələşdirilməsində beynəlxalq çirkli pulların yuyulması mexanizmlərindən istifadə olunub. Bununla bağlı ələhəzrət faktlar ortadadır. "Meydan TV"nin maliyyələşməsi Almaniyada qeydiyyatdan keçirilmiş "Demokratiya Uğrunda Assosiasiya" (Vereinigung für die Demokratie) adlı QHT üzərindən həyata keçirilir. Artıq ictimaiyyətə məlum olduğu kimi adıçəkilən təşkilatın direktoru Pensilvaniyada anadan olmuş 1992-ci il təvəllüdlü ABŞ vətəndaşı Metyu Kasperdir (Matthew Kasper). O, eyni zamanda "Meydan TV"yə də rəhbərlik edir.

**Aralarında erməni diaspor təşkilatları tərəfindən maliyyələşən fondların da olması istisna edilməyən donorlar tərəfindən ayrılan maliyyə vəsaitləri "Demokratiya Uğrunda Assosiasiya"nın hesablarına köçürüldükdən sonra qanunsuz pulyuma sxemləri əsasında "Meydan TV"nin maliyyələşdirilməsinə yönəldilib**

Aralarında erməni diaspor təşkilatları tərəfindən maliyyələşən fondların da olması istisna edilməyən donorlar tərəfindən ayrılan maliyyə vəsaitləri "Demokratiya Uğrunda Assosiasiya"nın hesablarına köçürüldükdən sonra qanunsuz pulyuma sxemləri əsasında "Meydan TV"nin maliyyələşdirilməsinə yönəldilib.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qrant layihələri və bu layihələr əsasında ayrılmış vəsaitlərin müvafiq dövlət qurumlarından qeydiyyatdan keçirilməli olduğunu bilən M.Kasper başda olmaqla "Meydan TV"nin fəaliyyətinə rəhbərlik edən, şübhəli əlaqələrə malik xarici koordinatorlar pul vəsaitlərinin gizli olaraq ölkəyə keçirilməsini təmin ediblər.

### Xaricə səfərlər edən və pul daşıyan "etibarlı şəxslər"

"Meydan TV"nin Azərbaycanda fəaliyyət göstərən bürosuna Aynur Elgünəş rəhbərlik edir. Onun iştirakı ilə xaricə səfər edən "etibarlı şəxslər" seçilib, həmin şəxslər geri qayıtdıqda müxtəlif məbləğlərdə xarici valyutanı gömrük nəzarətindən kənar qaçaqmalçılıq yolu ilə ölkəyə gətirərək ona təqdim ediblər. Vəsait isə tapşırıqlara uyğun olaraq aparılan fəaliyyətlərin reallaşması üçün istifadə olunub. Bu məqsədlə Türkiyə və Gürcüstandan tranzit kimi istifadə olunub. Bəzi hallarda M.Kasper yaşadığı Berlin şəhərindən Türkiyəyə səfər edərək vəsaiti Azərbaycana çatdıracaq şəxsə şəxsən özü təqdim edib.

Bir tərəfində M.Kasperin, digər tərəfində Aynur Elgünəşin olduğu şəbəkədə "Meydan TV" üçün ayrılan vəsaitlərin nağd şəkildə ölkəyə keçirilməsində Aynur Elgünəşin rəfiqəsi Ülviyyə Məmmədovanın adı keçir. Ü.Məmmədova bu ilin oktyabr ayında M.Kasperlə İstanbul şəhərində görüşərək ondan 14 min 600 avro pulu götürüb A.Elgünəşə çatdırıb. Bundan əlavə, Ülviyyə Məmmədovanın təşkilatçılığı ilə M.Kasper tərəfindən təqdim olunmuş 18 min avro məbləğində qrant vəsaiti onun İzmir şəhərində tələbə olan bacısı qızı Fidan Əliyeva və Türkiyə Respublikasının vətəndaşı Arda Dumanoğlu tərəfindən 28 noyabr 2024-cü il tarixdə ölkəyə gizli olaraq gətirilib.

Pul vəsaitlərinin Gürcüstandan qanunsuz yolla keçirilməsini isə həmin ölkədə "Meydan TV"nin nümayəndəsi təyin edilmiş Gürcüstan vətəndaşı Sevda Vidadi qızı Səmədova koordinasiya edib. Onun vasitəsilə 11 oktyabr 2024-cü il tarixdə Əhməd Muxtarov tərəfindən Gürcüstandan ölkə ərazisinə 13 min avro keçirilib. 13 oktyabr 2024-cü il tarixdə isə Sevda Səmədova Tbilisi şəhəri, P.Kakabadze küçəsində yerləşən "Ginger" hotelində Rəna Tahirova ilə görüşərək ona 5 min avro təqdim edib. Bundan əlavə, 6 dekabr 2024-cü il tarixdə Gürcüstandan qayıdan Ramin Deko özü ilə 38 min avro gətirib. Belə faktların siyahısı isə çox uzundur...




### "Meri" və "Mərt"in "Slack" mobil tətbiqi üzərindən yazışması

"Slack" mobil tətbiqində aparılan danışıqlardan görünür ki, məxfilik məqsədiylə Aynur Elgünəş "Meri" təxəllüsündən, M.Kasper isə "Mərt" şərti adından istifadə edib. "Meri" və "Mərt" arasında aparılan yazışmalar təsdiqləyir ki, donorlar tərəfindən öz maraqlarına uyğun mövzular öncədən müəyyən edilərək "Meydan TV"nin əməkdaşlarına sifariş edilib və onlardan plan üzrə materiallar hazırlamaq tələb olunub. Təbii ki, ödənilən qonorarın həcmi mövzunun "əhəmiyyətinə" görə dəyişib. Araşdırmalardan "Meydan TV"-yə aşağıdakı mövzular üzrə materiallar hazırlamaqla bağlı tapşırıqlar verilib:

- kiçik sosial problemlərin əhalinin narazılığı kimi təqdim edilməsi,
- narazı vətəndaş obrazlarının yaradılması,
- Qarabağda ermənilərin guya etnik təmizləməyə məruz qalmaları,
- LGBT hüquqlarının pozulması,
- ölkədə təşkil edilən COP29 beynəlxalq tədbiri zamanı ekoloji və sair problemləri qaldırmaq.

**"Meri" və "Mərt" arasında aparılan yazışmalar təsdiqləyir ki, donorlar tərəfindən öz maraqlarına uyğun mövzular öncədən müəyyən edilərək "Meydan TV"nin əməkdaşlarına sifariş edilib və onlardan plan üzrə materiallar hazırlamaq tələb olunub. Təbii ki, ödənilən qonorarın həcmi mövzunun "əhəmiyyətinə" görə dəyişib**

Qeyd edək ki, Azərbaycanafob dairələr əvvəllər də respublikamızda özlərinin çirkin məqsədlərini reallaşdırmağa cəhdlər göstəriblər. Ancaq onların "Beşinci kolon" təmsilçiləri ilə ikrah doğuran işbirliyi hər zaman uğursuzluğa düçar olub. İlk növbədə xalq-iqtidar həmrəyliyi, dövlətin güclü ideoloji əsasları belə məkrli planları puç edib.

**M.ABDULLAYEV**

# NASCO XXVII...

## Elmi konfransının plenar iclası keçirilib

**Bu günlərdə Sumqayıt Dövlət Universitetində (SDU) Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransının (NASCO XXVII) plenar iclası baş tutub. Konfransda elm və təhsil naziri Emin Əmrullayev, bir sıra nüfuzlu ali məktəblərin rektorları, tanınmış alimlər, gənc tədqiqatçılar iştirak ediblər.**

### 287 tezisdən 251-i qəbul olundu

Konfransda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev 27-ci dəfə keçirilən konfransın gənc alimlərə böyük imkanlar yaratdığını vurğulayıb. Nazir bildirib ki, hazırda müasir təhsil infrastrukturunun yaradılması, universitetlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi bu sahədəki əsas prioritetlərdəndir. Plenar iclasdan sonra konfrans öz işini bölmələr üzrə davam etdirib. Konfransa 287 tezis daxil olub, onlardan 251 tezis qəbul olunub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**

### SABAH qruplarının yeni modeli hazırlanır

Nazir həmçinin qeyd edib ki, hazırda ali məktəblərdə yaradılan SABAH qruplarının yeni modeli üzərində işlənilir.
Onun sözlərinə görə, ənənəvi SABAH qrupları 2015-ci ilin reallığına uyğun yaradılmışdı: "O zaman Təhsil Nazirliyi hesab edirdi ki, keyfiyyəti daha yaxşı idarə etmək üçün ayrıca, xüsusi istedadlar qrupu yaradılsın. SABAH-ın məzunlarının bütün göstəriciləri yüksəkdir, amma ali məktəblər də bu dövrdə böyük yol keçdi və ona görə də yeni SABAH qrupları yaradılmalıdır".




### Elmimizin gəncləşməsinə ehtiyac var

Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan elminin gəncləşməyə böyük ehtiyacı var. Nazirin sözlərinə görə, akademik dürüstlük olarsa, akademik nailiyyətlər də daha yaxşı olacaq: "Dürüst insan başqasının əməyini oğurlayıb öz əməyi kimi təqdim etmirsə, bu, çox böyük akademik nailiyyətdir. Elm sahəsində dövlət tərəfindən həqiqətən də bir neçə vacib addımlar atılıb. Hazırda xaricdə 280-ə qədər azərbaycanlı dünyanın aparıcı universitetində doktorantura təhsili alır. Hər il 500 gənc xaricdə təhsilə göndərilir: "Bu il 20 faizə qədər gəncin doktorantura təhsili üçün xaricə göndərilməsi maliyyələşdiriləcək. Bu, o deməkdir ki, xaricdə təhsil alan doktorantların sayı artacaq".

E.Əmrullayev həmçinin vurğulayıb ki, yaxın gələcəkdə doktoranturaya qəbul planında müəyyən korreksiyalar edilməsi planlaşdırılır: "Doktoranturada oxuyanların 10 faizi bu təhsilə başlayıb sonda elmi dərəcə alıb. Buna görə də bu məsələ iki tərəfdən tənzimlənməlidir. Bir tərəfdən, saylara bir daha baxmalıyıq. Bütün ali təhsil müəssisələrində doktorantura proqramı olmalıdır deyə bir reallıq yoxdur. Əgər müəssisə 10 doktorantura hazırlayırsa, onlardan 1-i təhsili yekunlaşdıraraq elmi dərəcə alırsa, burada müəssisənin də rolu var. Bu rəqəm 10-da birdən azdırsa, artıq nazirlikdən incimək lazım deyil. Biz bu istiqaməti düzgün sayırıq".

### "Ən böyük problemimiz budur..."

E.Əmrullayev məktəblərdə pul yığılması ilə bağlı iddialara münasibət bildirib. Nazir qeyd edib ki, məktəblərdə hazırda sistematik şəkildə pul yığılmır, sadəcə müxtəlif zamanlarda ayrı-ayrı təhsil müəssisələrində bu kimi hallarla bağlı şikayətlər olur və dərhal araşdırılır. Onun sözlərinə görə, burada iki məsələ xüsusi qeyd olunmalıdır: "Birincisi, pul yığılması məsələsi yolverilməz haldır və bu, dəfələrlə deyilib. Çünki təhsil sistemi böyükdür. Azərbaycanda fəaliyyət göstərən 4 400 məktəbin hər hansı birində bu hal baş versə, onu araşdırır və mübarizə aparırıq. Həmçinin rüşvət və bu kimi digər iddialar sonda cinayət xarakteri daşıdığı üçün hüquq-mühafizə orqanları tərəfindən də araşdırılmasının və müvafiq adamların müvafiq cəza almasının tərəfdarıyıq".

"Bir müəllimin və məktəbin belə fəaliyyətini bütün təhsil ocaqlarına şamil etmək düz yanaşma deyil. Söhbət bir məktəbdən gedirsə, təbii ki, nəticə barədə ictimaiyyətə məlumat verilir. Hazırda ən böyük problemimiz vətəndaş qəbulunda yaşanan anlaşılmazlıqdır. Çünki vətəndaşın şikayəti əsasında sübut olmadıqda, bunu təsdiq etmək çətindir. Bu halda cəza tədbiri görüləndə, direktor məhkəmə yolu ilə öz işinin bərpasını tələb edir. Çalışırıq ki, bu tip məsələlərdə hüquqi prosedurları pozmayaq".

*Yeganə BAYRAMOVA*

# İrəvan münasibətlərin normallaşmasını istəyirsə...

## Konstitusiya dəyişikliyi regionda yeni reallıqlar yaradacaq

Cənubi Qafqazın ümumi inkişaf tempinin sürətlənməsi, regionun iqtisadi-siyasi cazibədarlığının daha da artırılması ölkəmizin yürütdüyü çoxvektorlu siyasət kursunun mühüm tərkib hissəsidir. Azərbaycan istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə Cənubi Qafqaz regionunu əhatə etməsi, bölgəyə dividendlər qazandırması faktoruna fokuslanır. Məhz ölkəmizin səyi nəticəsində Cənubi Qafqaz yeni iqtisadi-siyasi nizamın ən mühüm elementlərindən biri qismində çıxış edir.

Təbii ki, bölgədə ümumən yeni münasibətlər sisteminin qurulması birmənalı şəkildə Ermənistanın siyasi iradəsindən asılı olacaq - Azərbaycanın irəli sürdüyü şərtlərə "hə" deyəcək İrəvan Bakı ilə yanaşı Türkiyə ilə də münasibətlərin normallaşması prosesində mühüm mərhələ qət edəcək. Türkiyə ilə münasibətlərin yaradılması isə Ermənistan üçün mühüm dividendlər vəd edir.

**Türkiyə ilə münasibətlərin normallaşması Azərbaycanla aparılan sülh prosesindən asılıdır**

### Keçirilən görüşlər...

Yeri gəlmişkən, Ermənistan və Türkiyə rəsmiləri 6-cı dəfə sərhəddə görüş keçirib. Bu barədə Ermənistanın Ankara ilə danışıqlar üzrə xüsusi nümayəndəsi, parlamentin vitse-spikeri Ruben Rubinyan məlumat verib. O, görüşün nə vaxt keçirildiyini dəqiq açıqlamasa da, qarşı tərəflə müzakirələrin müsbət və konstruktiv atmosferdə keçdiyini bəyan edib. Tərəflər Ahurik-Akyaka dəmir yolu-sərhəd keçidinin işə salınması ilə bağlı texniki detalları və nüansları müzakirə ediblər. Görüş və texniki qiymətləndirmə ilə bağlı razılıq Rubinyanla türkiyəli həmkarı Serdar Kılıç arasında iyulda sərhəddə, lakin başqa yerdə - Marqara keçid məntəqəsində baş tutan görüş zamanı əldə olunub.

Xatırladaq ki, son 4 ildə Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində bir sıra mühüm addımlar atılıb. Bu prosesdə tərəflər arasında dialoqun qurulması, sərhəd məsələlərinin həlli və iqtisadi-siyasi əməkdaşlığın artırılması məsələləri araşdırılıb - 2021-ci ilin sonunda etibarən başlanan prosesdə Türkiyə tərəfdən səfir Sərdar Kılıç, Ermənistan tərəfdən isə parlament sədrinin müavini Ruben Rubinyan əsas nümayəndə təyin olunublar. Tərəflər arasında ilk görüş 2022-ci ilin yanvarın 14-də baş tutub. Moskvada keçirilən görüşdə tərəflər normallaşma prosesini müzakirə ediblər və bu prosesin ilkin mərhələlərini planlaşdırıblar. Bir ay sonra Vyanada keçirilən ikinci görüşdə isə konkret addımların müzakirəsi aparılıb. Bundan sonra baş tutan 2 görüş də Vyanada reallaşıb - görüşlərdə sərhədlərin açılması və iqtisadi əlaqələrin inkişafı məsələlərini müzakirə edilib. qeyd edək ki, 2022-ci ilin fevralında Türkiyə və Ermənistan arasında birbaşa uçuşlar bərpa edilib. Bu, uzun illər fasilədən sonra ilk hava əlaqəsi idi.

Eyni zamanda, tərəflər ticarət məhdudiyyətlərinin aradan qaldırılması üçün müəyyən tədbirlər görülməsini müzakirə ediblər. Təbii ki, görüşlərdə ən vacib məsələ kimi Türkiyə ilə Ermənistan arasındakı quru sərhədlərinin açılması irəli sürülsə də, bu proses hələ ki reallaşmır. Burada bir sıra məqamlar var ki, Ermənistan onları yerinə yetirməlidir. Məsələn, sərhədlərin açılması üçün Azərbaycan ilə sülh müqaaviləsi imzalanmalı, Türkiyəyə qarşı qondarma iddialardan əl çəkilməlidir. Türkiyə Ermənistanla münasibətlərin inkişafını Azərbaycanın maraqları ilə əlaqələndirir. Beşinci görüş isə bu ilin iyulunda Marqara keçid məntəqəsində baş tutub.




### Sərhədlər açılacağı təqdirdə...

Qeyd edək ki, Türkiyə danışıqlar və müzakirələr zamanı hər zaman bir məqamı önə çəkir - Ankara ilə İrəvan arasındakı müzakirələr birmənalı şəkildə Azərbaycanla koordinasiyalı formada həyata keçirilir. Başqa sözlə, İrəvan Türkiyə ilə münasibətləri tənzimlənməsi üçün sülhü gecikdirməməlidir. Çünki Azərbaycan ilə Ermənistan arasında sülhün yaranması fonunda İrəvan-Ankara münasibətlərinin də yeni mərhələyə qədəm qoyması bütövlükdə regionun iqtisadi gələcəyi üçün mühüm perspektiv yaradır. Xüsusilə, Zəngəzur dəhlizinin açılması Ermənistanın həm Türkiyə, həm Azərbaycan, həm də bütövlükdə dünya ilə əlaqələrinin yeni müstəviyə qədəm qoymasına şərait yaradacaq. Ümumiyyətlə, dəhlizin açılması yeni ticari-iqtisadi üstünlüklər yaradır ki, İrəvan da bu üstünlüklərdən faydalana biləcək - xüsusilə, Türkiyə ilə normal iqtisadi-siyasi əlaqələrə malik olacağı təqdirdə regional inkişafın əsas ünsürlərindən birinə çevrilməklə yanaşı, Şərq-Qərb logistik ticarət və yükdaşıma yoluna qoşula biləcək. Çünki Zəngəzur dəhlizi Şərq-Qərb marşrutu üzərində ən qısa yol kimi əhəmiyyət daşıyır və dəhlizhin coğrafi imkanları olduqca genişdir. Başqa sözlə, dəhliz yeni iqtisadi münasibətlər sisteminin əsas təməllərindən birinə çevrilmə potensialına malikdir. Beləliklə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasının digər bir mühüm şərti Zəngəzur dəhlizinin açılması ilə üst-üstə düşür. Zəngəzur dəhlizi yalnız Azərbaycanın əsas hissəsi ilə blokada şəraitində olan Naxçıvan arasında əlaqəni təmin etməyəcək, həm də bütün region dövlətləri arasında əlverişli nəqliyyat bağlantısı yaradacaq. Xatırladaq ki, Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın və Türkiyənin mövqeyi paraleldir - Prezident Ərdoğan müxtəlif auditoriyalarda bəyan edib ki, Zəngəzur dəhlizinin həyata keçirilməsi ilə bölgənin iqtisadi və sosial hərəkətliliyi ən yüksək həddə çatacaq.

**Azərbaycanın irəli sürdüyü şərtlərə "hə" deyəcək İrəvan Bakı ilə yanaşı, Türkiyə ilə də münasibətlərin normallaşması prosesində mühüm mərhələ qət edəcək. Türkiyə ilə münasibətlərin yaradılması isə Ermənistan üçün mühüm dividendlər vəd edir**

### Konstitusiyanı dəyişməklə...

Ermənistan üçün real çıxış yolu sayılan münasibətlərin normallaşması üçün isə İrəvan üzərinə düşən öhdəlikləri yerinə yetirməli, bu münasibətlərin daha səmimi və əbədi olmasına səy göstərməlidir. Ermənistan anlamılıdır ki, konstitusiyasında edəcəyi dəyişiklik  həm Azərbaycan, həm də Türkiyə ilə münasibətlərin yeni məcraya qədəm qoymasında əsaslı şərtə çevriləcək. Söhbət ondan gedir ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kvadrat kilometrlik Azərbaycan torpağına iddia ortaya qoyur. Türkiyə ilə münasibətlərin tənzimlənməsinə olan maneəyə gəldikdə isə, sənəddə 1915-ci ildə Osmanlı dövlətində qondarma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasına nail olunması da vurğulanır. Ermənistan öz Konstitusiyasında müvafiq dəyişiklikləri etməklə bölgədə normal qonşuluq münasibəti yarada biləcək...

*P.İSMAYILOV*

# ABŞ-ın Ukraynaya 72-ci hərbi yardım paketi

## Zelenski isə ölkəsinin mövcud sərhədlər daxilində NATO-ya üzv olmasını istəyir

Rusiya-Ukrayna müharibəsində son vəziyyət rəsmi Kiyev üçün müsbət məcrada inkişaf etmir. Qərbin hərbi yardımına baxmayaraq, Rusiya ordusu Ukrayna ərazilərini ələ keçirməkdə davam edir. Digər tərəfdən, ABŞ-da Donald Trampın prezident seçilməsi Ukraynanı çətin durumla üz-üzə qoyub. Çünki Baydan administrasiyası Kiyevə davamlı hərbi yardım göstərsə də, Tramp səlahiyyətlərinin icrasına başlamasından sonra bu müharibənin dayandıracağını vəd edib. Trampın sülh planında Ukraynanın ərazi bütövlüyünün şərt olub-olmaması açıqlanmır.

### ABŞ-dan 500 milyon dollarlıq hərbi yardım

Belə bir şəraitdə Bayden administrasiyası ABŞ-ın Ukraynaya hərbi yardımlarını davam etdirir. İki gün əvvəl Birləşmiş Ştatlar Kiyevə 500 milyon dollarlıq yeni yardım paketini açıqlayıb. ABŞ Müdafiə Departamentinin məlumatına görə, yeni paketə Ukraynanın təcili ehtiyac duyduğu hava hücumundan müdafiə vasitələri, artilleriya və raket sistemləri üçün döyüş sursatları və tank əleyhinə silahlar daxildir. Bu, Bayden administrasiyası tərəfindən 2021-ci ilin avqust ayından etibarən Ukrayna üçün tədarük edilən 72-ci avadanlıq transhıdır.



Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi də jurnalistlər üçün brifinqdə təsdiqləyib ki, 72-ci hərbi yardım paketinə hava hücumundan müdafiə sistemləri, PUA-lar, artilleriya və zirehli texnika daxil olacaq. C.Kirbi əlavə edib ki, Bayden administrasiyası 2025-ci il yanvarın 20-də səlahiyyət müddəti başa çatana qədər Kiyevə hərbi yardım göstərməyə davam edəcək.

### Kiyevin müqavimət gücü hansı halda qırılacaq?

Bəs gələn il yanvarın 20-dən sonra Ukraynanın vəziyyəti necə olacaq? Bütün müttəfiqlər anlayır ki, ABŞ-ın hərbi dəstəyi olmadan Kiyevin müharibədə müqavimət gücü qırılacaq. Çünki Avropa İttifaqı bu ölkəyə yetərincə dəstək vermək imkanında deyil. Ukrayna Prezidenti Volodimir Zelenski vəziyyətdən çıxış yolu kimi ölkəsinin NATO-ya üzv qəbul edilməsinə çalışır. Təsadüfi deyil ki, o, Parisdə ABŞ-ın yeni seçilən prezidenti Donald Trampla görüşü zamanı Ukraynanın təhlükəsizliyinə təminat verilməsində təkid edib. Zelenski Ukrayna-Rusiya müharibəsinin dondurulması ehtimalının artdığını və bununla bağlı təhlükəsizlik təminatlarında israrlı olduğunu bildirib.

O, həmçinin Kiyevin yalnız güc mövqeyindən atəşkəs danışıqlarına başlaya biləcəyini vurğulayıb. V. Zelenski Ağ Evin gələcək rəhbəri ilə görüşündə Qərb qoşunlarının Ukrayna ərazisində mümkün mövcudluğu ilə bağlı təklif də irəli sürüb. Ukraynanın dövlət başçısı, eyni zamanda, NATO-ya üzvlük üçün dəvət almağa çalışdığını deyib. O, CBN telekanalına müsahibəsində söyləyib ki, Ukrayna NATO-ya dəvətin və təhlükəsizlik zəmanətinin yalnız Kiyevin nəzarəti altında olan ərazilərə şamil olunması ilə razılaşa bilər, lakin rəsmi olaraq ölkə 1991-ci il sərhədləri daxilində alyansa dəvət edilməlidir. "Əgər müharibəyə son qoymaq istəyiriksə, bütün Ukrayna ərazisi üçün dəvət lazımdır. Bu, konstitusiyamızda təsbit olunduğu üçün müzakirə edilmir. Lakin alyansın fəaliyyəti və görülən tədbirlər, həmçinin təhlükəsizlik zəmanətinin sonradan bütün ölkəyə şamil olunması şərti ilə hazırda Kiyevin nəzarətində olan və ya sonradan nəzarət edəcəyi ərazilərə aid olunacağı haqqında danışıq apara bilərik", - deyə Zelenski bildirib.

**Yeni paketə Ukraynanın təcili ehtiyac duyduğu hava hücumundan müdafiə vasitələri, artilleriya və raket sistemləri üçün döyüş sursatları və tank əleyhinə silahlar daxildir. Bu, Bayden administrasiyası tərəfindən 2021-ci ilin avqust ayından etibarən Ukrayna üçün tədarük edilən 72-ci avadanlıq transhıdır**

**V. Zelenski Ağ Evin gələcək rəhbəri ilə görüşündə Qərb qoşunlarının Ukrayna ərazisində mümkün mövcudluğu ilə bağlı təklif də irəli sürüb. Ukraynanın dövlət başçısı, eyni zamanda, NATO-ya üzvlük üçün dəvət almağa çalışdığını deyib. O, CBN telekanalına müsahibəsində söyləyib ki, Ukrayna NATO-ya dəvətin və təhlükəsizlik zəmanətinin yalnız Kiyevin nəzarəti altında olan ərazilərə şamil olunması ilə razılaşa bilər, lakin rəsmi olaraq ölkə 1991-ci il sərhədləri daxilində alyansa dəvət edilməlidir**

### Rusiya şərtlərini sərtləşdirir

Lakin Trampın Ukrayna prezidentinin bu təkliflərini qəbul edəcəyi inandırıcı deyil. Çünki onun məqsədi müharibəni qısa zamanda, hətta 24 saat ərzində dayandırmaqdır. Buna görə də, Tramp yalnız öz mövqeyində qalaraq, vəziyyəti daha da gərginləşdirəcək addımların atılmasında maraqlı görünmür. ABŞ-ın yeni prezidentinin fikrincə, Ukrayna münaqişəsi zamanı dünya daha təhlükəli olub və buna görə ABŞ-ın hazırkı prezidenti Co Baydeni günahlandırıb.

Rusiya da Zelenskinin təklifləri fonunda sülh razılaşmasını qəbul etməyəcək. Xatırladaq ki, rəsmi Moskva regionda vəziyyətin nizamlanması üçün Kiyevin NATO-ya üzvlük niyyətindən əl çəkməsini və Rusiyaya qarşı sanksiyaların ləğvini tələb edir. Ukrayna ordusunun Kursk vilayətinə hücumundan sonra isə Rusiya Prezidenti Vladimir Putin Kiyevlə danışıqlar aparmağın mümkünsüz olduğunu bəyan edib.

Yeri gəlmişkən, Donald Tramp Parisdə Zelenski ilə görüşdən sonra Ukrayna və Rusiyanı atəşkəsə və bunun üçün şərtləri açıqlamağa çağırıb. O, sosial mediadakı paylaşımında yazmışdı ki, Ukrayna münaqişəni dayandırmaq üçün Rusiya ilə razılaşmaq istəyir. Görünür, Zelenski Trampla razılaşmaq məcburiyyətindədir. Çünki indiyədək Kiyev məhz ABŞ-ın hərbi dəstəyi ilə cəbhədə Rusiyaya qarşı müqaviməti davam etdirə bilir. Verilən proqnozlar isə 2025-ci ilin Ukrayna üçün əlverişli olmayacağını deməyə əsas verir.

**Trampın Ukrayna prezidentinin bu təkliflərini qəbul edəcəyi inandırıcı deyil. Çünki onun məqsədi müharibəni qısa zamanda, hətta 24 saat ərzində dayandırmaqdır. Buna görə də, Tramp yalnız öz mövqeyində qalaraq, vəziyyəti daha da gərginləşdirəcək addımların atılmasında maraqlı görünmür. ABŞ-ın yeni prezidentinin fikrincə, Ukrayna münaqişəsi zamanı dünya daha təhlükəli olub və buna görə ABŞ-ın hazırkı prezidenti Co Baydeni günahlandırıb**

*N. BAYRAMLI*

---

# Avropa üçün "kilsə zəngi"...

## Yeni nizamda "köhnə qitə" hansı yeri tutacaq?

## Növbəti mərhələ üçün siyasi gerçəkliklər, yeni şəkilləndirmə...

Siyasi mütəxəssislərin də etiraf etdikləri kimi, 2025-ci il dünya üçün yeni nizam vəd edir. Bu yeni nizama daxil olan və ya onu təşkil edən dövlətlər, siyasi gerçəkliklər, kataklizmlər, nəhayət yeni şəkilləndirmə növbəti mərhələyə keçid dövrünü yaşayır. Dünyanın dörd bir tərəfinə nəzər salsaq, sanki 80 ilə yaxındır qurulan hazırkı nizam qaydaları dəyişməyə məhkum ediliblər - ölkələr siyasi ritorikadan hərbi ritorikaya inteqrasiya olunub, silahlar "modernləşmə" adı altında daha öldürücü xarakter daşımağa başlayıb, bölünənlər birləşmə, birləşənlər isə bölünmə qorxusu altındadır, yeni qlobal aktorlar meydana çıxmaq üçün fürsət güdürlər, tarixi təsiretmə rıçaqları isə artıq işə yaramır. Bu "cizgilər" birlikdə yeni dövrə keçid mərhələsində Yer kürəsinin təxmini "portreti"ni yaradır.

### Yüz illikdən yüz illiyə...

Məsələyə fərqli rakurslardan yanaşma tələb olunur - siyasi analitiklər yeni dövrü təxminən belə təsvir edirlər:

- İqtisadi əməkdaşlıqlar siyasi ambisiyaların önünə keçəcək;

- Hüquqi prosesləri tənzimləyən ənənəvi beynəlxalq kodekslər "format" olunacaq;

- Dövlətlərarası münasibətlər daha çox ticari balansa söykənəcək;

- Qlobal maraqlar lokal maraqlara "uduzacaq" və s.

Təbii ki, bütün bu arqumentlər səthi proqnozdan uzağa getmir, sadəcə olaraq 100 il öncənin dünyasının inkişaf mərhələlərinə diqqət yetirdikdə qarşıdakı yüzillik üçün pesrspektiv gözləntilərin eskizini formalaşdırmaq mümkündür. 100 il öncə böyük birliklər, imperiyalar, geniş sərhədlərə malik ölkələr, ittifaqlar, federal ərazi vahidləri aktual idisə, artıq günümüzün reallığında siyasi təsiretmə mexanizmləri "azlıqlar" üzərindən təşkil olunur. Bu amil böyük dövlətlər üçün "siyasi bəhanə", xüsusi imtiyazlara malik təşkilatlar üçün "giriş kartı" sayılır.

**Qitənin son 40 ildə əvvəl "iqtisadi", sonradan isə "siyasi" pasportuna çevrilən Avropa İttifaqında vəziyyət heç də ürəkaçan deyil. Hələ ilin əvvəlindən dəfələrlə açıq kontekstdə "reanimasiya" vəziyyətində olduğu bildirilən Aİ haqda ilin sonunda məhz qurum üzvü ölkənin rəhbəri pessimist bir proqnoz səsləndirdi - Slovakiyanın Baş naziri Robert Fitso Avropa İttifaqının yaxın 6 ay ərzində dağılma təhlükəsi ilə üzləşə biləcəyini dedi**

### Avropa "brendi" iflasın eşiyində...

Avropanın düşdüyü durum gün etibarı ilə daha "acınacaqlı" görünür. Başqa sözlə, yeni nizamda yer almaq üçün köhnə qitə daha çox səy göstərmək məcburiyyətindədir. Qitənin son 40 ildə əvvəl "iqtisadi", sonradan isə "siyasi" pasportuna çevrilən Avropa İttifaqında vəziyyət heç də ürəkaçan deyil. Hələ ilin əvvəlindən dəfələrlə açıq kontekstdə "reanimasiya" vəziyyətində olduğu bildirilən Aİ haqda ilin sonunda məhz qurum üzvü ölkənin rəhbəri pessimist bir proqnoz səsləndirdi - Slovakiyanın Baş naziri Robert Fitso Avropa İttifaqının yaxın 6 ay ərzində dağılma təhlükəsi ilə üzləşə biləcəyini dedi. Bu məntiqi irəli sürən Baş nazir cəmisi altı ay öncə silahlı sui-qəsdə məruz qalmışdı. Maraqlıdır ki, il ərzində Fitsonun dəfələrlə Aİ ilə bağlı indiyə qədər səslənməyən fikirlərinin şahidi olmuşduq - Aİ-nin sifarişlə işləməsi (hər mənada - həm sifariş verir, həm də sifariş qəbul edir) faktı Fitso tərəfindən etiraf olunmuşdu. Bu etirafı daha da gücləndirən bəzi Qərb siyasətçiləri Avropa Parlamentinin lobbi təşkilatlarının əlində oyuncağa çevrildiyini, Avropa Komissiyasının öz mənafeyi çərçivəsində fərqli standartlara uyğun mövqe nümayiş etdirməsini, korrupsiya ittihamlarının daha da intensivləşməsini, son iki ildə nümayiş olunan siyasi səbatsızlığın səbəb olduğu iqtisadi gərginlikləri, "demokratiya yolu" adı altında cinayətkarların, separatçıların dəstəklənməsini arqumentlərlə ortaya qoyurlar.



Yeni nizamın formalaşma ehtimalından az öncə Avropa özünə "gəlmək" üçün hətta xəritəsinə "əl gəzdirməyə" belə hazır idi. Ukrayna başda olmaqla bəzi ölkələrin birliyə daxil olması üçün verilən "təkliflər" bunu sübut edir. Bütün prosedur qaydaları ayaq altına alınmışdı - səbəb isə, Aİ rəhbərliyinin Bayden administrasiyasına xoş gəlmək istəyindən qaynaqlanırdı. Bu təhlükəli oyunlar isə artıq işə yaramır - hətta yeni mərhələdə Aİ bunun üçün "cavab verməli olan"a çevrilmə təhlükəsi yaşayır:

- Öndəkilərin (Fransanın) fitvası ilə nisbətən zəiflərə (Macarıstana) qarşı edilən haqsızlıqlar, hüquq pozuntuları, iqtisadi repressiyalar;

- "Sanksiya iddiası" ilə ölkələrin gücünü zəiflətmək və nəticə etibarı ilə qitənin ümumən güc mərkəzi olmaq şansını azaltmaq;

### "Bizdə" vəziyyət ... "Sizdə" vəziyyət... "Onlarda" vəziyyət...

Fokusu bir nöqtəyə cəmləsək, nələrin şahidi olarıq:

- Qərbdə ikitirəlik yaranıb: Avropanın tarixi avrosentrizm - anqlo sakson qarşıdurması yeni libasda ortaya çıxır. Bu dəfə Qərb ikili maraq üzərindən oyun qurmaqdadır. Səbəb isə məğlubiyyət ehtimalının əvvəlkindən daha çox olmasıdır...

- Şərqdə, xüsusilə Yaxın Şərqdə yenə də "səhra dumanı" tüğyan etməkdədir. 100 illərlə davam edən gərginliklər özünü xəritə üzərində məntiqi sonluğa çatdıra bilmir. Razılaşma tərəfləri üçün yaranan situasiya birmənalı deyil - burada həm coğrafi, həm dini, həm də mental (irqi) səbəblər əhəmiyyətli rol oynamaqdadır...

- Şərqdə vəziyyət nisbi, sakit, gərgin olaraq qalır. Nisbi vəziyyət daha çox Şərqi Asiya regionu üçün, sakit vəziyyət daha çox Mərkəzi Asiya üçün, gərgin vəziyyət isə daha çox Uzaq Şərq üçün spesifiklik daşıyır...

- Afrikanın yeni inkişaf tarixi formalaşa bilər - Qərbin imperialist maraqları bu qitəni tərk etdikcə, qitə dövlətləri özləri üçün yeni siyasi-iqtisadi inkişaf strategiyası müəyyənləşdirirlər. Təsadüfi deyil ki, 2024-cü ildə Ərəb liqasının və ya Afrika İttifaqının BMT TŞ-da təmsilçiliyi belə aktuallaşdırılıb...

- Amerika qitə olaraq ümumi nizam qaydalarından bir az kənarda görünür. Epizodik olaraq bəzi ölkələr yeni tarixi inkişaf proseslərində yer alırlar (məsələn, BRİKS təmsilçisi kimi Braziliya və s.). Təbii ki, qitənin siyasi-ictimai, hərbi və ticari "məkanda" ən real təmsilçisi var - ABŞ! Bu siyasi-iqtisadi güc yeni nizamın formalaşmasında özünəməxsus rol oynamaqdadır. Xüsusi qeyd edək ki, sözügedən yeni dünya nizamının yaranmasının məhz post-2025-ci ilə proqnozlaşdırılması sırf ABŞ ilə bağlı bir məsələdir

**Avropa gələn ilin yanvarında köhnə illə birgə yolun və köhnə nizamın da sona çatacağının fərqinə bir az gec vardı - nəticə etibarı ilə Avropa Ordusu iddiaları ortaya çıxdı, Mərkəzi Avropada gedən müharibənin sonlandırılması üçün paytaxtlara "zənglər edildi", son 2 ildə ilk dəfə alternativ fikirlər səsləndi, hətta etiraz olundu - Avropanın yeni nizamda yer tutması üçün vacib şərtlər əslində bu formulda gizlənirdi...**

### Qitə üçün gizli formul...

- Qlobal müharibə yaratmaq həvəsi və təhriki...

Avropa gələn ilin yanvarında köhnə illə birgə yolun və köhnə nizamın da sona çatacağının fərqinə bir az gec vardı - nəticə etibarı ilə Avropa Ordusu iddiaları ortaya çıxdı, Mərkəzi Avropada gedən müharibənin sonlandırılması üçün paytaxtlara "zənglər edildi", son 2 ildə ilk dəfə alternativ fikirlər səsləndi, hətta etiraz olundu - Avropanın yeni nizamda yer tutması üçün vacib şərtlər əslində bu formulda gizlənirdi...

### Xilas planı...

Nəticə etibarı ilə, Avropa hazırda "ziyanın yarısından qayıtmaq" üzrədir və ya bunun üçün çaba göstərir. Çünki Yaxın Şərqdə formalaşan yeni reallıqlar "köhnə qitə" üçün də "qızıl kilsə zəngini" səsləndirir. Toqquşan maraqları uzlaşan mənafelərə transfer etməyin zamanının gəldiyinin fərqindədirlər. Yaxın Şərqdən köç etmiş mühacirlərin qayıdışı fonunda (artıq bununla bağlı real qərarlar qəbul olunur) Avropa yəqin ki, özü üçün həm də yeni standartlar müəyyənləşdirəcək. İllərlə "müttəfiqin" kölgəsində yaşanan "təhlükəsiz həyat" sona çatmaq üzrədir. Qitə özünün yeni iqtisadi diversifikasiyasını aparmalıdır. Əks halda...

Bunun üçün real şans belə yaranıb. Məsələn, Aİ-nin çöküşünün əsas səbəbkarlarından biri sayılan Paris arxa plana keçirilir. Əslində, Aİ yeni inkişaf mərhələsini yaratmaq üçün buna daha əvvəldən "imza" atmalı idi. Avropa Komissiyasındakı korrupsiya faktları rəsmiləşir - bu da öz növbəsində Avropanın öz "yaralarından" xilas olmaq cəhdi kimi dəyərləndirilir. Növbəti mərhələ, qitədə sabitliyin əldə olunmasıdır ki, bunun da üzərində real işlər aparılır. Aİ-yə "elektroşok" sayılacaq addımlar isə təcili surətdə atılmalıdır:

- Yeni iqtisadi layihələrə qarşı qısqanc və korporativ baxışlar dəyişməli, daha loyal və əməkdaşlıq ruhunda münasibətlərə keçid edilməlidir;

- Qurum daxilindəki siyasi fikir ayrılığını siyasi repressiyaya çevirməməli;

- Neokolonialist mahiyyətdən əl çəkilməsi üçün həmin ölkələrə təsir edilməli;

- Yanaşmalar beynəlxalq hüquq, ədalət və konvensiyalara uyğun şəkildə tənzimlənməlidir. Bu, Avropanın xilas planı da sayıla bilər...

**Aİ-nin çöküşünün əsas səbəbkarlarından biri sayılan Paris arxa plana keçirilir. Əslində, Aİ yeni inkişaf mərhələsini yaratmaq üçün buna daha əvvəldən "imza" atmalı idi. Avropa Komissiyasındakı korrupsiya faktları rəsmiləşir - bu da öz növbəsində Avropanın öz "yaralarından" xilas olmaq cəhdi kimi dəyərləndirilir. Növbəti mərhələ, qitədə sabitliyin əldə olunmasıdır ki, bunun da üzərində real işlər aparılır**

*Pərviz SADAYOĞLU*

# Afrika Yelisey Sarayına qarşı

## Fransa müstəmləkəçiliyinə qarşı mübarizənin yeni dalğası

Dünya dəyişsə də, qlobal miqyasda qarşıya yeni çağırışlar çıxsa da, Yelisey Sarayı müstəmləkəçilik siyasətinin mahiyyətini dəyişmək istəmir. Fransanın qatı müstəmləkəçilik siyasətini 500 illik qanlı tarix kimi səciyyələndirmək mümkündür. Ancaq artıq vaxt yetişib ki, buna son qoyulsun. Bu gün Afrikada Fransa müstəmləkəçiliyinə qarşı mübarizənin yeni dalğası başlayıb. Fransa Afrikada, dənizaşırı ərazilərdə törətdiyi müstəmləkə cinayətlərini etiraf etməli, üzr istəməli və təzminatlar ödəməlidir.

### Son dərəcə mürtəce siyasətdən qaynaqlanan nifrət

Afrikada Yelisey Sarayına nifrətin artması təsadüfi deyil. Fransa Afrika ölkələrinə müsibətlərdən başqa heç nə gətirməyib və bu, tarixi sənədlərdə də öz əksini tapıb. Qeyd edək ki, ilk dəfə qitədə Fransa müstəmləkəsi 1524-cü ildə yaradılıb. Qitənin ərazisinin 35 faizi 300 il Fransa-



nın nəzarəti altında olub. Seneqal, Kot-d-İvuar və Benin qul ticarəti mərkəzinə çevrilmişdi. Fransa Afrikanın yeraltı, yerüstü sərvətlərini talayır, insanlarını isə qul kimi satırdı. Qitənin istənilən bölgəsində Fransanın hökmranlığına qarşı üsyanın qarşısı sərt şəkildə alınırdı. Afrika xalqları bu mübarizədə 2 milyondan çox qurban veriblər.

İndiki dövrdə Yelisey Sarayı ənənəvi müstəmləkəçilik siyasətini neokolonializmlə əvəzləyib. Fransa yeni kolonializm siyasətində bir qayda olaraq iqtisadi təzyiq vasitələrindən istifadə edir. Fransa 1945-ci ildən bəri Afrikada Fransız Müstəmləkələri Frankı (CFA) adlı pul vahidinin tətbiqinə başlayıb. Bu pul vahidinin tətbiqi Afrika ölkələrini iqtisadi inkişafdan geri salır, onları səfalətə sürükləyir. Təsadüfi deyildir ki, Afrikanın Sahil regionu ölkələrində, habelə Fildişi Sahili və Malidə baş verən münaqişələrin əsas səbəbi CFA-ya alternativ valyuta seçmək cəhdləri olub. Məhz bu pul vahidi sayəsində Fransa Afrika ölkələrini istismar edir, onların sərvətlərini mənimsəyir. Qitədə aclıq və səfalətin, kütləvi emiqrasiyanın səbəbi də CFA-dır. Lakin ondan vaz keçmək Afrika ölkələri üçün heç də asan deyil. Son illərdə Qərbi Afrika İqtisadi Birliyinə (ECOWAS) üzv olan 15 ölkə bu pul vahidindən imtina edəcəyini açıqlayıb, lakin Fransa buna qarşı yeni münaqişə ocaqları yaratmaq siyasətini davam etdirir. İndiyədək qitə ölkələrində baş vermiş hərbi çevrilişlərin 70 faizi fransızların təsiri altında olan dövlətlərin payına düşür. Afrikada Yelisey Sarayına artan nifrət də son dərəcə mürtəce səciyyə daşıyan müstəmləkəçilik siyasətindən qaynaqlanır.

**İndiki dövrdə Yelisey Sarayı ənənəvi müstəmləkəçilik siyasətini neokolonializmlə əvəzləyib. Fransa yeni kolonializm siyasətində bir qayda olaraq iqtisadi təzyiq vasitələrindən istifadə edir. Fransa 1945-ci ildən bəri Afrikada Fransız Müstəmləkələri Frankı (CFA) adlı pul vahidinin tətbiqinə başlayıb. Bu pul vahidinin tətbiqi Afrika ölkələrini iqtisadi inkişafdan geri salır, onları səfalətə sürükləyir**

### Fransanın hərbi mövcudluğuna son qoyulur

Keçmiş Afrika müstəmləkələrində təsirini itirməkdə davam edən Parisə qarşı çıxan dövlətlərin sırasına Çad da qoşulub. Çad Fransa ilə hərbi əməkdaşlıq müqaviləsini ləğv edib. Bu, Sahel bölgəsində Fransa hərbi kontingentinin hələ də qaldığı son ölkə idi. Dekabrın birinci ongünlüyündə Fransa qırıcı-



ları Çadı tərk edib. Bu barədə "France Presse" agentliyi məlumat yayıb. Məlumata görə, bu, Çad hökumətinin Fransa hərbi kontingentinin ölkədən çıxarılmasını tələb etməsindən sonra baş verib.

Bundan əvvəl Qərbi Afrikada Fransanın dayağı hesab edilən Seneqalda da oxşar qərar elan edilib. Seneqal prezidenti Bassirou Diomay Faye Fransa mətbuatına müsahibə verərək bildirib ki, xarici hərbi kontingentin olduğu ölkə həqiqi müstəqil ölkə sayıla bilməz. "Seneqal müstəqil, suveren ölkədir və suverenlik xarici hərbi bazaların mövcudluğuna imkan vermir", - deyə Faye vurğulayıb.

Faye sərt ifadələrindən sonra ölkəsinin ABŞ, Səudiyyə Ərəbistanı, Türkiyə və Çinlə yaxşı münasibətlər saxladığını bildirib və qeyd edib ki, bu dövlətlərin heç birinin Seneqalda hərbi bazası yoxdur.

Bu məzmunda açıqlamanın verilməsi üçün vaxt təsadüfən seçilməyib. Dekabrın ilk günü Seneqal üçün əlamətdar bir tarixdir. 1 dekabr 1944-cü ildə Thiaroy qırğını (müasir Dakar) baş verib: fransız əsgərlər II dünya müharibəsində vuruşmuş 400-ə qədər Seneqal hərbçisini öldürüblər. Buna səbəb afrikalı əsgərlərin xidmət şəraitindən narazılıq etmələri olub. Fransa bu qətliama görə məsuliyyəti öz üzərinə götürüb, lakin təzminat ödəməkdən və insidentlə bağlı sənədləri açıqlamaqdan imtina edib.

Fransanın Afrikada hərbi mövcudluğuna son qoyulan ölkələrdən biri də Kot d`İvuardır. Fransa kontingentinin Kot d`İvuardan çıxarılması burada ona heç bir tələbat olmadığını göstərir. Verilən məlumatlarda bildirilir ki, Kot d`İvuarın əhalisi keçmiş metropolun genişmiqyaslı mövcudluğuna getdikcə daha çox tənqidi yanaşır və bunu qəbul etmir.

**Fransanın Afrikada hərbi mövcudluğuna son qoyulan ölkələrdən biri də Kot-d-İvuardır. Fransa kontingentinin Kot-d-İvuardan çıxarılması burada ona heç bir tələbat olmadığını göstərir. Verilən məlumatlarda bildirilir ki, Kot-d-İvuarın əhalisi keçmiş metropolun genişmiqyaslı mövcudluğuna getdikcə daha çox tənqidi yanaşır və bunu qəbul etmir**

### Türkiyənin mövqeyi güclənir

"Bayraktar TB2" PUA-dan sonra Mali hakimiyyəti Türkiyənin "Baykar" şirkətindən ən yeni "Akıncı" pilotsuz uçuş aparatlarını alıb.

Bu barədə Türkiyənin "Star" qəzetinin Afrikadakı keçmiş Fransa müstəmləkələrindəki vəziyyətlə bağlı analitik icmalında deyilir. Nəşrin məlumatına görə, Niger və Burkina Faso da daxil olmaqla, Sahel bölgəsinin bir çox ölkələrində Türkiyənin mövqeyi güclənir. Üstəlik, söhbət təkcə müdafiə deyil, həm də iqtisadi komponentdən gedir.

"Afrika ölkələri Türkiyəni etibarlı tərəfdaş kimi qəbul edərək, müstəmləkə keçmişi olan güclərdən, xüsusən də Fransadan uzaqlaşır", - deyə nəşrdə bildirilir.

Beləliklə, Mali Afrikada "Akıncı" PUA-nı alan dördüncü ölkə olub. Bundan əvvəl "Akınçı " Burkina Faso, Efiopiya və Liviyaya tədarük olunmuşdu.

*Mübariz FEYİZLİ*

# Böyüklər üçün uşaq kitabı

## Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" roman-pritçası haqqında

1935-ci ilin sonlarında Ekzüperi bütün olan-olmazını toplayıb üstəlik də dostlarından borc götürmək hesabına aldığı şəxsi təyyarəsiylə Paris-Sayqon-Paris marşrutu üzrə aviasiya yarışına qoşuldu. Yarışın şərtinə görə, uçuş müddəti 87 saatdan çox çəkməməliydi, o hesabla yeni ili pilot ya evdə, ya da göydə qarşılamalıydı. Sayqon şəhərinin Vyetnamda yerləşdiyini nəzərə alsaq, o dövr üçün bu məsafəni qoyulan müddətdə başa vurmaq asan deyildi. Yarışın mükafat fondu yüz əlli min frank idi. Otuz beş yaşlı məşhur təyyarəçi bu pulla maddi problemlərin altından çıxacağına ümid eləyirdi.

Dekabrın otuzunda onun təyyarəsi Liviya səhrasında qəzaya düşdü. Təyyarənin pilotuyla mexaniki möcüzə sayəsində sağ qaldılar. Qəzadan salamat qurtulsalar da, yel qanadlı xəyal atından yıxılmış macəra axtaranlar bu səfər susuzluqdan ölmək qorxusuyla göz-gözə gəldilər. Hadisənin dördüncü günü səhrada karvan sürən bədəvilər yarımcan fransızların dadına çatmasaydı, hər ikisi ucsuz-bucaqsız qumluqda leşə dönüb qurda-quşa yem olasıydı.

Təyyarəsinin qanadlarını gövdədən ayıran fələk özü də bilmədən o qanadları Ekzüperinin ilhamına bağladı, yazıçının yaradıcı təxəyyülünün kövrək lələklərinə sığal çəkdi. Planetin unudulmuş küncündən, qısır səhradan dünya ədəbiyyatının o vaxtacan misli görünməmiş yeni bir obrazı boy göstərdi. Qum cücərdi, səhra bar verdi, Balaca Şahzadə Ədəbiyyat Səltənətinin vətəndaşlığına əbədi vəsiqə aldı.

***

...Planetin ən böyük səhrasının üstüylə uçan təyyarə xarab olur. Pilot hava maşınını qumluğa oturdub mühərriki düzəltməyə başlayır. Xeyli çalışandan sonra təyyarəçini yuxu aparır. Dan üzü onu haradan peyda olduğu bilinməyən solğun bənizli, qızıl saçlı bir uşaq səsləyib oyadır: "Mənim üçün quzu şəkli çək".

Bunu deyən Balaca şahzadə səhrada qəzaya uğrayıb həyatın səmtini itirmiş insanın, yəni əslində absurd dünyada, eni-uzunu bilinməyən qaranlıq kainatda, dibigörünməz zülmət okeanda özünə mayak axtaran müəllifin daxili məni, alter-eqosu, onun ruhu, könlü, bələdçisidir.

Ruh deyəndə, Tanrı deyəndə çox adamın xəyalına başı buludlara dəyən yüz min yaşlı müdrik, nurani qoca gəlir, əbədiyyət deyəndə gözümüzün qabağında əvvəli-axırı görünməyən sonsuz zaman canlanır. Ekzüperinin tanrısı bu balaca uşaqdır - onun saf qəlbi böyüklərin paslı beynindən milyon qat artıq bilir. Hamı uşaq olub, ancaq hər kəs bunu xatırlamır.

Elə əbədiyyət də nəhəng zaman-filan deyil, saniyənin trilyonda biri boyda (yəni əslində ensiz-boysuz) kiçik bir an, zamanın axıda bilmədiyi, məkanın yer tapa bilmədiyi, kainat yellərinin dəbərdə bilmədiyi bölünməz vaxt atomudur.

***

Balaca şahzadə bu səhraya öz planetindən - 1909-cu ildə bir türk astronomunun kəşf elədiyi B-612 nömrəli asteroiddən enib. Onun planetində biri sönmüş, ikisi aktiv üç vulkan, körpə baobab pöhrələri, bir də gözəlliyi göz qamaşdıran yeni açmış qızılgül var. Hər yuxudan duranda o, planetini səliqəyə salır, vulkanlarını silib təmizləyir, səhər yeməyini onlardan birinin üstündə qızdırır, sonra qızılgülünü suvarır, onun nazıyla oynayır. Quzu ona ondan ötrü lazımdır ki, baobabların pöhrə budaqlarını, yarpaqlarını qırpıb onları böyüməyə qoymasın, yoxsa bu kobud, arsız ağac hər yana kök atıb onun körpə planetini parçalayacaq, qızılgülünü qurudacaq. Aydındır ki, baobab burada yer üzünə sığmayan, dünyanı insanlara dar eləyən fironların, tiranların, despotların obrazıdır.

Qızılgülün prototipi isə yazıçının ömür-gün yoldaşı, Yer planetinin Latın Amerikası adlı bağçasından dərdiyi tikanlı çiçəyi Konsuelodur. Antuan onunla Argentinada rastlaşmışdı, Salvadordan gəlmiş ikiqat dul qadına ilk baxışdan vurulmuşdu, onu təyyarəsinə mindirib göylərə qaldırmışdı, elə göyün üzündəcə qadına ultimatum vermişdi: ya Konsuelo Antuana ərə gəlməyə razı olacaq, ya da çılğın pilot təyyarəni dağlara-qayalara çırpıb nikahını o dünyada rəsmiləşdirəcəkdi.

Dörd ay sonra onlar Parisdə evlənmişdilər. Birgə yaşayışları rahat ötüşməsə də, hər ikisinin evdən kənarda çoxlu dayanacağı olsa da, heç yerdə sığınacaq tapmamışdılar, hərlənib-fırlanıb yenə bir çətirin altına girmişdilər.

***

Balaca şahzadə pilotun çəkdiyi rəsmi bəyənmir, onun fikrincə, şəkildəki quzudan çox qoyuna, qoça bənzəyir, üstəlik buynuzları da var. Həm də bu qoyun çox qocadır, ona cavan quzu lazımdır ki, uzun yaşasın, hələ neçə il xidmət göstərsin. Bu qoyun onun planetindəki yeganə qızılgülü yeyə bilər, çünki o gülü dördcə miskin tikandan başqa heç nə qorumur, o tikanları da bu qoç bir qırpımda udacaq, gülün gözəlliyinə, qoxusuna əsla bənd olmayacaq.

Gerçəkdən də, bu dünyada dodağı şehli qızılgül qönçəsini quru samandan ayırmayan buynuzlu-buynuzsuz nə qədər qoyun var.

Təyyarəçinin çəkdiyi (yeri gəlmişkən, əsərdəki illüstrasiyaların da müəllifi Ekzüperi özüdür) quzu rəsmləri də Balaca şahzadənin xoşuna gəlmir. Bəs onda neyləməli, qızılgülü nadan ağızlarda çeynənməkdən necə qorumalı? Hərçənd onun ətirli çiçəyi də fağır-zad deyil, çox məğrur, tərs, dikbaşdır, onu qoxlamaq üçün qarşısında baş əyənlərə cırmaq atandır. Elə Balaca şahzadə özü də ondan küsdüyü üçün planetindən aralı düşüb. Gedən ayaqda qızılgül nalayiq davrandığına görə ondan üzr diləyib nazını çəkəni çox sevdiyini söyləsə də, Balaca şahzadə səfərindən daşınmayıb. Küssə də, acıqlansa da, fələkdən qorunmağa dördcə körpə tikanından savayı heç nəyi olmayan köməksiz gülün məsuliyyəti onun boynundadır, o gül ona əmanətdir.

Pilot Balaca şahzadəyə təskinlik üçün quzunun ağzına noxta vuracağını deyir. Ancaq onda da yerini genəltməyə can atan baobab pöhrələrinin qarşısını alan olmayacaq, o pöhrələr nəhəng ağaca çevrilib planeti kölgəsində çürüdəcək. Belədə təyyarəçi bir yeşik şəkli çəkib quzunu o yeşiyə yerləşdirir, bu yolla Balaca şahzadəni, nəhayət, razı salır. Onun quzusu gecələr o yeşiyin içində yatacaq, gündüzlərsə quzunu bağlasın deyə pilot gödək bir ip şəkli də çəkəcək. Bilmək olmaz, bir də gördün heyvan təzib gözdən itdi, baş alıb harasa getdi.

Şahzadə təəccüblənir: bağlamaq nəyə lazım, onun planeti onsuz da böyük deyil, vur-tut bir ev boydadır, qaçıb gizlənməyə də dalda bir yeri yoxdur. Sonra da öz-özünə danışırmış kimi kədərli-kədərli deyir: "Əgər düz yolla getsən, itib batmazsan..."

***

Yerə gəlib çıxana qədər Balaca şahzadə altı planetdən keçib.

Birincisi tənha kralın planetidir. Dəbdəbəli xalatını geyinib cah-cəlallı taxtına oturmuş kral onu görəndə çox sevinir. O, hər kəsə təbəəsi kimi baxmağa, xahişi də əmr şəklində çatdırmağa öyrəşib. Ancaq indi öz planetində təkdir, əmr verib buyurmağa kimsəsi yoxdur. Uşaq onun hüzurunda əsnəyəndə davranış etiketini pozduğuna görə kral ona acıqlanır, ancaq sonra özü uşağa göstəriş verir ki, əsnəsin, çünki kral çoxdandır əsnəyən adam görməyib. Uşaqsa qorxusundan daha əsnəyə bilmir.

Kral özünü inandırıb ki, yerdə-göydə nə varsa, hamısı onun əmrinə müntəzirdir. Ancaq gərək hər kəsdən mümkün olanı tələb eləyəsən, yoxsa əmrin yerinə yetməz: "Əgər mən öz generalıma kəpənək olub güldən-gülə qonmağı, dənizin üstündə uçan qağayıya çevrilməyi, ya dahiyanə səhnə əsəri yaratmağı əmr eləsəm, general da bu əmri yerinə yetirə bilməsə, günah kimin boynunda qalacaq - onun, ya mənim?.. Gərək hər kəsdən gücünə, bacarığına görə istəyəsən. Hakimiyyət ağılla idarə olunmalıdır. Əgər sən öz xalqına dənizə atılmağı əmr eləsən, xalq üsyana qalxacaq..."

Balaca şahzadə kraldan günəşi qüruba göndərməyi xahiş eləyir - o öz planetində qürub seyrinə tez-tez dalır, bu mənzərəni təkrar-təkrar görmək üçün oturduğu kətili bir addım irəli çəkməsi ona yetir. Kral uşağa deyir ki, tələsməsin, axşam saat filanda günəş onun əmriylə qüruba enəcək. Bu yerdə filosofların "Azadlıq - dərk olunmuş zərurətdir" kəlamı yada düşür. Ağıllı kral da öz hökmünü zərurətlə uzlaşdırır, verəcəyi əmrin yerini alması üçün əlverişli şəraitin yaranmağını gözləyir, buna görə də onun hökmü havadan asılı qalmır.

Balaca şahzadə getmək istəyəndə kral əlinə göydə düşmüş tək təbəəsini buraxmamaq üçün ona ədliyyə naziri postu təklif eləyir. Ancaq qoca monarxın planetində mühakimə olunası kimsə yoxdur. "Onda özün-özünü sorğu-suala çək, - kral deyir, - bu, başqalarını mühakimə eləməkdən qat-qat çətindir. Əgər özünü doğru mühakimə eləyə bilsən, demək, gerçəkdən müdrik adamsan".

Sonda uşağın qarşısını kəsə bilməyəcəyini anlayan kral təbəəsinin əmrdən çıxmağına alışmadığına görə onu getdiyi yerə səfir təyin eləyir, bununla da pərtliyini örtüb basdırıb hökmdar qürurunu, monarx təkəbbürünü sakitləşdirir.

***

İkinci planetdə şöhrətpərəst məskunlaşıb. Kral üçün hər kəs təbəə olduğu kimi ondan ötrü də hamı pərəstişkardır. Şöhrətpərəstə elə gəlir hamı onun ağlının, sərvətinin, zər-zibalı geyiminin heyranıdır, halbuki o da öz planetində tək-tənhadır. Şöhrət xəstəsi Balaca şahzadədən xahişdə bulunub özünə əl çaldırır, dərhal da şlyapasını çıxarıb ədayla təzim göstərir. Bu mənzərə bir neçə dəfə təkrar olunur.

Şlyapası şöhrətpərəstə elə təzim üçün gərəkdir. Onun qulağı tərifdən başqa hər sözə kardır. Onu yalnız başqalarının heyranlığı yaşadır. Balaca şahzadə düşünür ki, bu böyüklər çox qəribə məxluqlardır.

Üçüncü planetdə əyyaş yaşayır. Burada çoxlu dolu, boş şüşələr var. Əyyaş içir, sonra vicdan əzabı çəkir. Əzabını unutmaq üçün yenə içir, sonra yenə əzab çəkir. Beləcə, əzabını unutmaqla xatırlamaq arasında aramsız var-gəl eləyir. Balaca şahzadə yenə "Nə qəribə adamlardır bu böyüklər!" deyib yoluna davam eləyir.

Dördüncü planet işgüzar adamın dünyasıdır. Adam o qədər məşğuldur ki, sönmüş siqaretini yandırmağa belə vaxtı yoxdur. Balaca şahzadə onun planetinə ayaq basanda işbaz heç başını da qaldırmır, Kafkanın Poseydonu kimi elə hey hesablayır. İşgüzar adam rəqəmləri üst-üstə gəlib bir-birinə vurandan sonra beş yüz milyonluq bir nəticə alınır. Uşaq ondan soruşur: "Beş yüz milyon nə?" İşbaz ona cavab vermir, deyir ki, ciddi işlə məşğuldur, laqqırtı vurmağa vaxtı yoxdur. Ancaq uşaq əl çəkmir, sualını dönə-dönə təkrarlayır: "Beş yüz milyon nə?.."

Məlum olur ki, işgüzar adam ulduzları hesablayır, onun beş yüz milyondan çox ulduzu varmış. Bəs hökmü ulduzlara da çatan kral necə olsun? O deyir ki, kralların heç nəyi yoxdur, onlar yalnız idarə eləyirlər. Ulduzlar ona varlanmaq üçün lazımdır. Bəs varlanmaq onun nəyinə gərəkdir? Kəşf olunan yeni-yeni ulduzları almaqdan ötrü. Ulduzlar heç kimə məxsus deyilsə, demək, onun mülkü, onun sərvətidir, çünki ulduzlara sahib çıxmaq ondan qabaq heç kəsin ağlına gəlməyib. Bəs axı ulduza əl çatmır, işbaz bu böyük sərvətdən necə yararlanacaq? Hə, bunun da yolu-yöndəmi tapılıb, işgüzar adam özəlləşdirdiyi ulduzları banka qoyur.



*F.Uğurlu*

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şənbə üçün NƏZM









*Mən daha yerinə bir rəsm cızdım,*
*Saçları boyasız bəm-bəyaz ana.*
*O gün ki, sən mənə*
*yeni yol yazdın,*
*Az qaldı balaca qəlbim dayana.*

*Daha xatırlaya bilmirəm səni,*
*Üzünün rəngini, təbəssümünü.*
*Körpələr evinin astanasında,*
*Ele o qapıda unutdum səni.*

*Son dəfə gözümə baxdı gözlərin,*
*Bilmirəm qaraydı, yoxsa qəhvəyi.*
*Səndən daha heç nə xatırlamıram,*
*Soyuq ürəyindən başqa heç nəyi.*

*Suallar, sorğular didir qəlbimi,*
*Sən nəyi qazandın, nəyi itirdin.*
*Əgər sənin üçün dəyərsizdimsə,*
*Məni bu dünyaya niyə gətirdin?*

*Mənim xəyalımdan anam çağırır ,*
*Mənə lay-lay deyir ,*
*”can” deyir qadın.*
*Sənin həyatında çoxmu yer tutdum,*
*Ay, mənə can verən,*
*can alan qadın?*

*Körpələr evi də isinmir heç vaxt,*
*Sənin o sonuncu əllərin kimi.*
*Cızır hər saniyə vərəm çöpləri,*
*Dağıdır günbəgün ciyərlərimi.*

*Həkimlər ümidə bükürlər məni,*
*Gözəl göstərirlər mənə sabahı.*
*Basdırdım qəlbimə ümidlərimi,*
*Həsrətin vərəmi*
*sağalmır axı...*

***

*Ayrılıq qapımın*
*astanasında*
*Mən ona baxıram,*
*o mənə baxır.*
*Dikilib gözlərim*
*xatirələrə,*
*Göz yaşı yerinə*
*gözümdən axır.*
*Axır illər boyu*
*yaşadıqlarım,*
*Əksini gözümdən*
*süzüb aparsın.*
*Yaza bilmədiyim*
*hekayələri,*
*Tale dəftərimdən*
*dartıb qoparsın.*
*Ən böyük acımın*
*acısı olub,*
*Ağlasın sürünən*
*bu güzarıma.*
*Yad etsin sinəmdə*
*gömdüklərimi,*
*Bir çiçək gətirsin*
*qəlb məzarıma.*
*Son dəfə üzünə*
*baxsın vicdanın,*
*Baxsın oda düşmüş oduna sevgim.*
*Bir dünya sandığım*
*xatirələri*
*Odumda yandırıb*
*külə çevirdim ...*

***

*Belə də yaşayır insan,*
*Belə də... keçirir ömrü.*
*Bitənəcəndi sevgilər*
*Keçir, batır, itir ömrü.*

*Uzağı 4 - 5 ay çəkir,*
*Sonra yaddan çıxıb keçir*
*Ölənəcən də çək-çevir,*
*40-a güclə yetir ömrü.*
*Nə tutmuşam günü yasa,*
*40-na 3 il qaldısa?*
*Bax, bu şeir kimi qısa,*
*Yaşayıram sətir ömrü..*

*Bu neçənci yaradı?*
*Saydım, sarıdım,olmur.*
*Elə yanır ki, canım*
*Qollarımı “sən” etdim*
*bərk bərk sarıldım...*
*Olmur...*

*Təqvimin*
*yarpaq yarpaq*
*Xəzəl edir ömrümü*
*Qoca qarılar kimi*
*sayıram günlərimi*
*Öz saçıma əl çəkib,*
*üzümü oxşayıram*
*Özümçün darıxanda*
*dizimi oxşayıram*
*Bir az gülümsəyəndə*
*özümə oxşayıram*
*Sənə darıxdığımçün,*
*“məndən” olmur ki, olmur*

*Hər küçə, hər tin, dalan*
*Yığılıblar qəsdimə*
*Adam insafsız olmaz*
*Bütün xatirələri bu*
*şəhərdə buraxıb*
*Sən də atdın üstümə.*

*Necə izah edim ki,*
*Hər gün ölmək dirilmək*
*Zülümdən də zülmdür.*
*Necə izah edim ki..*
*Öldürməyən yaralar*
*Ölümdən də zülmdü.*

*Sən də yaşa, unut, sil*
*Özünə təsəlli ver..*
*De ki qismət nədirsə*
*ondan artığı olmur.*
*Qədəri bu qədərmiş*
*Bax bu həyat belədi,.*
*Neyləyə bilərəm ki...*
*Ölənlə ölmək olmur.*

***Müşfiqə Baladdinqızı***

# Zəli ilə müalicə

## Bilmədiyimiz fəsadları...

## Kimlərə zəli qoydurmaq olmaz?

***Yeganə BAYRAMOVA***

Qədim zamanlardan insanlar xəstəliklərin müalicəsində müxtəlif vasitələrə əl atıblar. Həmin müalicə üsullarından biri də zəlidən istifadə olub. Müalicənin çox qəribə adı da var-hirudoterapiya. Uzun illər öncə zəlidən Qədim Yunanıstan, Hindistan, Misir və Çində də geniş istifadə olunub. Kraliça Kleopatranın Yuli Sezardan hamilə qalması zəlilər sayəsində olduğuna dair bir əfsanə də var. Bundan sonra hətta Misir fironlarının məzarlarının divarlarında zəli təsvirləri görünməyə başladı.

Orta əsrlərdə hirudoterapiyanın piylənməyə qarşı kömək etdiyi aşkar edilmişdi. Qədim kitabxanaların materiallarında aparılan qazıntılar zamanı həkimlərin heyrətamiz nəticələri qeyd etdiyi əlyazmalar tapılıb. Əlyazmalarda qeyd edilmişdi ki, zəli vasitəsilə insanlar çətinlik çəkmədən 10 kq-a qədər arıqlaya bilirlər. Bundan başqa, zəlilərin köməyi ilə ürək problemləri, başgicəllənmə, nəfəs darlığı, sonsuzluq müalicə edilirdi. Hirudoterapiyanın çiçəklənmə dövrü XVIII əsrin sonu və XIX əsrin əvvəllərinə təsadüf edir. Demək olar ki, hər şeyi müalicə etmək üçün istifadə olunurdu.

Zəli ilə müalicə bu gün də var. Zəlinin ağız suyunda olan fermentlərin insana heç bir ziyanı yoxdur. Lakin zəlinin fərdi olaraq ziyanı ola bilər. Belə ki, bu müalicə üsulu bütün xəstələrə tətbiq oluna bilməz.

**Bu, absurd yanaşmadır...**

Fitoterapevt Füzuli Hüseynov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, zəli insan orqanizmi üçün çox faydalıdır. Onun sözlərinə görə, zəli qoydurduqdan sonra qan durulur, maddələr mübadiləsi yaxşılaşır. Lakin mütəxəssis özbaşına qoyulan zəlilərin fəsadlara yol aça biləcəyini xüsusi vurğulayıb: “Məsələn, bəzi pasiyentlər tromblardan əziyyət çəkərkən ağrı olan nahiyəyə zəli qoyurlar, amma düşünmürlər ki, digər yerlərdəki tromblar qopub fəsad verə bilər. Bəziləri deyir ki, zəlinin yerindən qan axmalıdır, özü dayanmalıdır. Bu, absurd bir yanaşmadır və düzgün deyil. Bir sutkaya əgər 2 litr qan itirilirsə, bu, bilirsinizmi nə deməkdir? Bunun axırı ölüm də ola bilər. Ona görə də bu məqamların hamısını nəzərə almaq lazımdır. Zəli qoyarkən ehtiyatlı olmaq vacibdir. Nəyə görə zəli qoyulur, hansı nahiyəyə qoyulmalıdır - bunların hamısını bilmək mühümdür.

Adətən tibb bacıları, masajçılar zəli qoyurlar, amma yenə də həkim rəyi olmalıdır. Həkim rəyi olmadan bu, çətin məsələdir. Bədəndəki zəli qoyulacaq nöqtələri bilmək mütləqdir. Zəlidən sonra diqqət edilməlidir. Pasiyent gözləməlidir ki, qanaxması olmasın. Qan dayandıqdan sonra pasiyent yola salınmalıdır”.

**Zəli qoyulmadan öncə bəzi analizlər verilməlidir**

Mütəxəssis zəlidən istifadədən öncə mütləq müəyyən analizlərin verilməli olduğunu deyib: “Ən azından şəkər, laxtalanma və qanın ümumi analizi mütləq verilməlidir ki, həmin xəstəyə zəli qoymağa icazənin olub-olmadığı dəqiq məlum olsun. Çünki elə xəstəlik ortaya çıxa bilər ki, həmin xəstəyə zəli qoymaq düzgün deyil. Bu zaman xəstə aidiyyəti üzrə mütəxəssisə yönləndirilməlidir ki, xəstəliyi ilə bağlı rəy versin”.

**Bu şəxslərə zəli qoymaq olmaz...**

F.Hüseynov qeyd edib ki, qanazlığı olan şəxslərə zəli qoydurmaq olmaz: “Belələri üçün zəli əks göstərişdir. Çünki xəstənin halı pisləşəcək. Bundan başqa, zəlinin yerindən qan axdıqdan sonra bağlanmalıdır ki, qanaxma verməsin. Eyni zamanda bəzi hallarda zəliyə qarşı allergiyalı insanlar olur. Birinci seansda bu, özünü biruzə verir. Bədən zəli qoyduqdan sonra səpməyə başlayır.

Bədxassəli şişlərdə, şəkərli diabet olan insanlara da zəli qoymaq olmaz”.

**Bir zəlidən yalnız bir dəfə istifadə edilməlidir...**

Zəlinin növlərinin çox olduğunu deyən fitoterapevt, bir zəlidən ikinci dəfə istifadə etməyin doğru olmadığını bildirib. Onun sözlərinə görə, zəli yalnız bircə dəfə istifadə edilməlidir.



F.Hüseynov sözlərinə görə, normada zəli hər 7 gündən bir 10, 8, 6, 4 ədəd və ya hər 3-4 gündən bir 3-5 ədəd qoyula bilər: “Bu, insanın qan tərkibindən, qan təzyiqindən və ümumi vəziyyətindən asılı olaraq təyin olunur. Xəstəlikdən asılı olaraq, 10, 20, 30, 50, 80 və daha çox zəli istifadə oluna bilər. Bəzi hallar istisnalıq təşkil edir, məsələn, ayağında irinli iltihab olan bir xəstəyə 150 ədəd zəli təyin edilə bilər və yalnız bundan sonra sağalma başlayır.

Məsələn, miqreni olan xəstəyə 6 ədəd zəli qaraciyər üstünə, 2 ədəd sağ qulaq arxasına, 2 ədəd sol qulaq arxasına, sonrakı 10 gündə boyuna, sonra kürəyə, sonra belə, sonra büzdümə və sonda yenə axırıncı 10 ədəd zəli saç diblərinə, gicgaha və boynun arxasına qoyulmalıdır”.

**Müalicə ildə 2 dəfə aparılmalıdır...**

Mütəxəssis bildirib ki, bəzən tək ağrıyan yerə zəli qoymaqla kifayətlənirlər, lakin bu, düzgün deyil: “Çünki birinci seansda zəlini ağrıyan yerə qoyandan sonra mütləq qaraciyərüstü, boyun, kürək, bel, büzdüm, dizlərə, topuqlara qoymaq, sonda yenə ağrıyan hissəyə qoyub müalicəni bitirmək lazımdır. Və yaxud məsələn, xəstədə boyunda osteoxondroz varsa, həftədə 8 ədəd zə li qoyulursa, onda hər həftə 3-4 ədəd boyuna, qalanları isə növbə ilə kürəyə, belə, büzdümə qoyula bilər. Nə üçün zəli başqa nahiyələrə də qoyulmalıdır? Çünki zəlinin ağız suyundakı hirudin və hirudinin tərkibindəki 105 ferment bizim qan damarlarımızla bütün bədənimizə yayılır və bununla da pozulmuş qan dövranını bərpa edir, toxumaların daha yaxşı qidalanmasını təmin edir.

Ümumiyyətlə, zəli müalicəsi ildə 2 dəfə-yaz və payız fəslində aparılmalıdır, bu tip müalicə profilaktik müalicədir, xəstəliklərdən asılı olaraq zəlinin sayı və müalicə müddətləri dəyişə bilər”.

# BMT-nin Əhali Fondunun “Rəqəmsal dünyanı qadınlar üçün təhlükəsiz mühitə çevirək!” şüarı altında keçirdiyi 16 Günlük Fəallıq Kampaniyası başa çatıb

BMT-nin Əhali Fondunun (UNFPA) Yaponiyanın “Takeda Pharmaceutical Company Limited” şirkətinin maliyyə dəstəyi ilə həyata keçirdiyi “Qadınlar diqqət mərkəzində: qadınlara qarşı zorakılıq pandemiyası ilə mübarizə” layihəsi çərçivəsində icra edilən 16 Günlük Fəallıq Kampaniyası başa çatıb.

“Rəqəmsal dünyanı qadınlar üçün təhlükəsiz mühitə çevirək!” şüarı altında keçirilən builki kampaniya texnologiya vasitəsilə törədilən gender əsaslı zorakılıqla mübarizə mövzusuna həsr olunub. Kampaniyanın məqsədi texnologiyaların qadınlara və qızlara qarşı zorakılıq törətmək məqsədilə bir alət kimi istifadə olunması probleminə ictimaiyyətin diqqətini çəkmək, İnternetdən təhlükəsiz istifadə qaydalarını təşviq etmək, habelə geniş əhali kütləsini zorakılıqdan müdafiə mexanizmləri haqqında məlumatlandırmaqdan ibarət olub.

Qeyd etmək lazımdır ki, dünyada qadınların faizi texnologiya vasitəsilə törədilən zoraklığa məruz qalıb və ya digər qadınlara qarşı törədilən bu cür zorakılığın şahidi olub. Dünyada qadınların 57 faizinin onlayn videoları və ya şəkilləri sui-istifadə və ya təhrif edilib.




UNFPA-nın bu təşəbbüsü qadınların və qızların texnologiyalardan təhlükəsiz istifadə etməsi üçün cəmiyyətin bütün təbəqələrini səfərbər olmağa çağırıb.

Kampaniya çərçivəsində gender bərabərliyi, gender əsaslı zorakılıq , eləcə də texnologiya vasitəsilə törədilən zorakılıqdan müdafiə mexanizmlərinə dair hazırlanmış materiallar müxtəlif platformalar vasitəsilə ictimaiyyətə təqdim olunub. Eyni zamanda, sosial şəbəkələr vasitəsilə yayımlanan maarifləndirici videomateriallar və sosial çarx hədəf auditoriyalarına gender əsaslı zorakılıqla mübarizənin əhəmiyyətini çatdırıb, rəqəmsal zorakılıqdan müdafiə yollarına diqqət çəkib.

16 Günlük Fəallıq Kampaniyasının əsas komponentləndən biri olan məlumatlandırma sessiyaları Bakı, Abşeron-Xızı, Gəncə-Daşkəsən və Qarabağ bölgələrini əhatə edib. Məktəb və icmalarda təşkil edilmiş sessiyalarda qadınlara qarşı texnoloji zorakılığın müxtəlif formaları, o cümlədən, təhqir, təqib, şantaja məruz qalma və şəxsi məlumatların icazəsiz paylaşılması hallarından müdafiə yolları haqqında məlumat verilib. Tədbirlərdə iştirak edən tanınmış influyenserlər sosial şəbəkələrdən istifadə zamanı şəxsi məlumatların paylaşılması ilə bağlı təcrübələrini iştirakçılarla bölüşüblər.

Kampaniya çərçivəsində məişət zorakılığından müdafiə ilə bağlı UNFPA tərəfindən hazırlanmış veb-resurs da ictimaiyyətə təqdim olunub. Məişət zorakılığı və gender əsaslı zorakılıqla üzləşmiş şəxslər bu onlayn resurs vasitəsilə müvafiq dəstək xətləri, sığınacaqlar və digər xidmətlər barədə ətraflı məlumat əldə edə bilərlər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4880**
**Sifariş: 2875**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova